RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 232 (9399) 24 OKTYABR 2023-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Sumqayıt şəhəri inkişafının yeni dövrünü yaşayır

◆ Prezident İlham Əliyevin Sumqayıt şəhərinə səfəri



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Sumqayıt şəhərinə səfər edib.**

**Səfər çərçivəsində Prezidenti İlham Əliyev Ulu Öndər Heydər Əliyevin Sumqayıt şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edib, Sumqayıt Kimya Sənaye Parkında yeni müəssisələrin açılış və təməlqoyma mərasimlərində iştirak edib, Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunda yaradılan şəraitlə tanış olub, Sumqayıtda 2 saylı şəhər xəstəxanasının yeni binasının açılışında iştirak edib.**

→ 2-4

## Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Ulu Öndər Heydər Əliyevin Sumqayıt şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı abidənin önünə gül dəstəsi qoyub.

## Möhkəm dostluğun və tərəfdaşlığın yaxşı nümunəsi



### Macarıstanın Baş naziri zati-aliləri cənab Viktor Orbana

Hörmətli cənab Baş nazir,

Macarıstanın milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Macarıstan arasında yüksək səviyyəli dövlətlərarası əlaqələr və uğurlu əməkdaşlıq məmnunluq doğurur. Möhkəm dostluğun və tərəfdaşlığın yaxşı nümunəsi olan, qarşılıqlı etimad və dəstəyə əsaslanan münasibətlərimizin gündən-günə genişlənməsi və yeni məzmunla zənginləşməsi bizi olduqca sevindirir.

Ölkələrimizin beynəlxalq və regional təşkilatlar çərçivəsində konstruktiv qarşılıqlı fəaliyyətini və dəstəyini, aktual qlobal və regional məsələlərdə oxşar mövqelərdən çıxış etməsini xüsusi qeyd etmək istərdim.

Əminəm ki, mövcud imkanlardan yararlanaraq birgə səylərimizlə ölkələrimiz arasında genişlənmiş strateji tərəfdaşlığın, həm ikitərəfli qaydada, həm də çoxtərəfli müstəvidə, xüsusilə də Türk Dövlətləri Təşkilatı çərçivəsində qarşılıqlı səmərəli əməkdaşlığımızın daha da dərinləşməsinə nail olacağıq.

Tezliklə görüşmək ümidi ilə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dövləti fəaliyyətinizdə uğurlar, dost Macarıstan xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 oktyabr 2023-cü il*

## Z.A.Əsgərovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Ziyafət Abbas oğlu Əsgərov "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 oktyabr 2023-cü il*

## Fransa mənfur təcrübəsini Cənubi Qafqazda tətbiq etməyə çalışır

### Parisin müstəmləkə siyasəti beynəlxalq hüquq qarşısında əsas problemlərdən biridir

Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə Bakıda 14 ölkənin, eləcə də Fransanın müstəmləkə altında saxladığı dənizaşırı ərazilərinin, həmçinin Korsika təmsilçilərinin iştirakı ilə "Neokolonializm: İnsan hüquqlarının pozulması və ədalətsizlik" adlı beynəlxalq konfransın keçirilməsi təsisatın artıq müstəqil qlobal subyekt kimi özünü doğrultduğunu göstərməklə bərabər, həm də qlobal miqyasda şər yuvasına çevrilmiş Fransa ilə onun başa düşdüyü dildə danışılmağa başlandığını göstərir.

Keçmiş müstəmləkələrində dövlətlərin daxili işlərinə kobud şəkildə müdaxilələr edən, habelə hazırkı koloniyalarında insan hüquqlarını pozan Fransanın ifşa edilməsi ayrı-ayrı bölgələrdə, o cümlədən Cənubi Qafqazda Parisin əsl simasını göstərmək üçün çox önəmlidir.

→ 7

## Ermənistanı silahlandıran Fransa sülh danışıqlarında iştirak edə bilməz

Mövcud reallıqları qəbul edə bilməyən, Cənubi Qafqazdakı çoxillik ikiüzlü siyasəti iflasa uğrayıb gülünc duruma düşən Fransa indi ölkəmizə qarşı səlib yürüşünə keçib. Ermənistana yalnız siyasi dəstək verməklə kifayətlənməyən Paris təcavüzkar ölkəni silahlandırmağa da başlayıb. Bütün qüvvəsi ilə sülh danışıqları prosesinə əngəl olan Emmanuel Makron Aİ-nin müşahidə missiyası adı ilə Parisin jandarm qüvvələrində xidmət etmiş hərbi qulluqçuları kəşfiyyat xarakterli məlumatlar toplamaq məqsədi ilə Ermənistan-Azərbaycan sərhədinə yerləşdirib. Bu azmış kimi, Ermənistanı Cənubi Qafqazda forpostuna çevirməkdə israrlı olan Fransa bu istiqamətdə fəaliyyətini davam etdirərək təlim adı altında ilkin olaraq 56 fransız hərbçini İrəvana göndərib.

→ 7

## 3000-dək şəxsi heyət, 130 zirehli texnika, 100-dək artilleriya, 20-dən artıq aviasiya vasitəsi...

Azərbaycan Ordusunun və Türkiyə Silahlı Qüvvələrinin hərbi qulluqçularının iştirakı ilə "Mustafa Kamal Atatürk-2023" birgə taktiki təlimi başlayıb.



Bakı şəhəri, Naxçıvan Muxtar Respublikası və azad olunmuş ərazilər də daxil olmaqla ölkəmizin müxtəlif istiqamətlərində keçirilən birgə taktiki təlimə hər iki ölkənin müxtəlif qoşun növündən ümumilikdə 3000-dək şəxsi heyət, 130 ədəd zirehli texnika, 100-dək artilleriya vasitəsi, 20-dən artıq aviasiya və uçuş vasitələri, eləcə də mühəndis texnikası və kiçik botlar cəlb olunub.

Təlimdə müasir döyüş üsullarından istifadə etməklə artilleriya, aviasiya və digər qoşun növlərinin hərbi əməliyyatlarda tətbiqi, onların qarşılıqlı əlaqədə fəaliyyətinin təşkili, çaylar üzərindən keçid açmaq məqsədilə panton körpülərin salınması və şərti düşmənin dərinliyinə desant endirilməsi üzrə müxtəlif tapşırıqlar icra edilir.

"Mustafa Kamal Atatürk-2023" birgə taktiki təlimində əsas diqqət qoşunların qarşılıqlı əlaqədə fəaliyyətləri zamanı döyüş uzlaşmasının təmin edilməsi, idarəetmənin təkmilləşdirilməsi, təcrübə mübadiləsi və şəxsi heyətin peşəkarlığının artırılmasına yönəldilib.

## Prezident İlham Əliyevin Sumqayıt şəhərinə səfəri

# Sumqayıt şəhəri inkişafının

### Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında yeni müəssisələrin açılış və təməlqoyma mərasimlərində iştirak edib














**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Sumqayıt Kimya Sənaye Parkında yeni istehsal müəssisələrinin açılış və təməlqoyma mərasimlərində iştirak edib.**

AZƏRTAC xəbər verir ki, Sumqayıt Kimya Sənaye Parkı Azərbaycan Prezidentinin 2011-ci il 21 dekabr tarixli fərmanı ilə yaradılıb. Bu, Azərbaycanda yaradılmış ilk, Cənubi Qafqazda isə ən böyük sənaye parkıdır.

Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov dövlət başçısına Sumqayıt Kimya Sənaye Parkında görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, hazırda ərazisi 583,5 hektar təşkil edən sənaye parkında neft-kimya və digər prioritet sənaye sahələri üzrə rəqabətqabiliyyətli məhsulların istehsalı və emalı müəssisələri fəaliyyət göstərir. Parkda ümumi investisiyaların həcmi təqribən 5,8 milyard manata yaxın olan 38 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. İndiyədək sənaye parkına rezidentlər tərəfindən 5,4 milyard manatdan çox investisiya yatırılıb. Qeydiyyata alınmış 38 rezidentdən artıq 20-si fəaliyyət göstərir. Bu gün "Azərbaycan Vanhong Ceramics Co." MMC, "Novus Plastica" MMC və "UPI - Universal Packing Industry" QSC-nin açılışı ilə Sumqayıt Kimya Sənaye Parkında fəaliyyət göstərən müəssisələrin sayı 23-ə çatır.

İndiyədək Sumqayıt Kimya Sənaye Parkının rezidentləri tərəfindən ümumilikdə 9,5 milyard manatlıq məhsul satışı həyata keçirilib ki, onun da 3,3 milyard manatdan çox hissəsi - təqribən 35 faizi ixracın payına düşür. Sənaye parkında 2023-cü ilin 9 ayında 2,1 milyard manatlıq məhsul istehsal edilib ki, bunun da 674,4 milyon manatlıq hissəsi ixrac olunub.

Qeyd edildi ki, hazırda burada 6600-dən çox insan daimi işlə təmin olunub. Bundan əlavə, mövcud layihələr üzrə sənaye parkına əlavə olaraq 394 milyon manatdan artıq investisiyanın yatırılması, 2000-dən çox daimi iş yerinin yaradılması nəzərdə tutulur.

Parkda istehsal olunan məhsullar Türkiyə, Rusiya, Ukrayna, Belarus, Çin, Tayvan, Bolqarıstan, Rumıniya, Polşa, Niderland, İtaliya, Makedoniya, Litva, Avstriya, Estoniya, Danimarka, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Tacikistan, Gürcüstan, Qırğızıstan, Braziliya, Misir, Birləşmiş Ərəb Əmirlikləri, Livan, İraq, Yaponiya, Amerika Birləşmiş Ştatları, Kanada və digər ölkələrə ixrac olunub.

❖ ❖ ❖

Prezident İlham Əliyev əvvəlcə parkda "Çinar-Servis" İstehsal-kommersiya firmasının Texniki qazların istehsalı müəssisəsinin təməlqoyma mərasimində iştirak etdi.

Məlumat verildi ki, "Çinar-Servis" 2022-ci ilin mayında Sumqayıt Kimya Sənaye Parkının rezidenti kimi qeydiyyatdan keçib. Şirkət sənaye parkının 2 hektara yaxın ərazisində sıxılmış azot, oksigen, arqon və maye helium qaz məhsullarının istehsalı ilə məşğul olacaq.

İnvestisiya həcmi 13,3 milyon manat olan layihə çərçivəsində 70 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulur. İstehsal olunan məhsulların daxili bazarda satılması ilə yanaşı, xarici ölkələrə də ixracı planlaşdırılır. "Çinar-Servis" tərəfindən istehsal olunan sənaye qazları ölkəmizdə bu məhsullara tələbatı ödəməklə yanaşı, Gürcüstana, Türkiyəyə, Rusiyaya da ixrac ediləcək.

Dövlət başçısı istehsal müəssisəsinin təməlini qoydu.

❖ ❖ ❖

Sumqayıt Kimya Sənaye Parkının rezidentlərindən biri də "Novus Plastica" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Prezident İlham Əliyev "Novus Plastica" MMC-nin Polimer qatqıları istehsalı müəssisəsinin açılışını etdi.

Bildirildi ki, "Novus Plastica" MMC-yə 2020-ci ilin avqustunda Sumqayıt Kimya Sənaye Parkının rezidenti statusu verilib. Sənaye parkının 3,5 hektar ərazisində inşa edilmiş müəssisədə iki növ məhsulun - polietilen borular üçün qara karbon konsentrat qatqısının və sənaye sahəsində qablaşdırmada istifadə edilən polietilen örtüklərin istehsalı həyata keçirilir. İtaliyanın qabaqcıl texnologiyalarının tətbiqi ilə istehsal olunan məhsulların daxili bazarda satışı ilə yanaşı, Türkiyəyə, MDB ölkələrinə ixracı da planlaşdırılır.






**Prezident İlham Əliyevin Sumqayıt şəhərinə səfəri**

# yeni dövrünü yaşayır

## Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında yeni müəssisələrin açılış və təməlqoyma mərasimlərində iştirak edib

İnvestisiya kapitalı 12,1 milyon manatdan çox olan müəssisədə 50-dək insan daimi işlə təmin ediləcək.

Qeyd edək ki, "Novus Plastica" MMC tərəfindən "SOCAR Polymer" MMC-nin və "Azərikimya" İstehsalat Birliyinin məhsullarından xammal kimi istifadə olunacaq.

Dövlət başçısı müəssisəni işə saldı.

❖ ❖ ❖

Sonra Prezident İlham Əliyev "Universal Qablaşdırma Sənaye" Qapalı Səhmdar Cəmiyyətinin Qablaşdırma məhsulları istehsalı müəssisəsinin açılışında iştirak etdi.

Diqqətə çatdırıldı ki, sənaye parkının bir hektar ərazisində inşa edilmiş müəssisədə qablaşdırmada istifadə olunan qofro karton, fayl və digər məhsullar istehsal ediləcək. İtaliya və Çin texnologiyalarının tətbiq edildiyi müəssisədə 20 çeşiddə məhsul istehsal olunacaq. Ümumi investisiya dəyəri 4,8 milyon manat olan müəssisədə ilkin mərhələdə 50 nəfər daimi işlə təmin ediləcək. Növbəti mərhələdə isə işçilərin sayının 65 nəfərə çatdırılması nəzərdə tutulur.

Dövlət başçısı müəssisəni işə saldı.

❖ ❖ ❖

Daha sonra "Azərbaycan Vanhong Ceramics Co." MMC-nin Keramik plitələr istehsalı müəssisəsinin açılışı oldu.

Prezident İlham Əliyev müəssisədə yaradılan şəraitlə tanış oldu.

Məlumat verildi ki, sənaye parkının 20 hektardan çox ərazisində Çinin qabaqcıl texnologiyalarının tətbiqi ilə yüksəkkeyfiyyətli, müxtəlif ölçülərdə keramik plitələrin istehsalı həyata keçiriləcək. Yüz faiz Çin kapitallı müəssisə üçün investisiya dəyəri 40 milyon ABŞ dolları, işçi sayı 400 nəfər nəzərdə tutulsa da, hazırda müəssisəyə 50 milyon ABŞ dolları məbləğində investisiya yatırılıb və 484 nəfər işlə təmin olunub. İllik istehsal gücü 18 milyon kvadratmetr olan müəssisənin məhsulları daxili bazarda satılmaqla yanaşı, region və MDB ölkələrinə ixrac olunacaq.

Qeyd edək ki, "Vanhong Ceramics"in hazırda Çində 5 zavodu var, həmçinin dünyanın 5 ölkəsində müəssisələri fəaliyyət göstərir.

"Azərbaycan Vanhong Ceramics Co." MMC-nin baş direktoru **Ciyi VANQ** dedi: Möhtərəm cənab Prezident, "Azərbaycan Vanhong Ceramics Co." MMC-nin Keramik plitələr istehsalı müəssisəsinin açılış mərasimində iştirakınızla bizi qürurlandırdığınız üçün Sizə minnətdarlığımı bildirirəm.

**Prezident İlham ƏLİYEV:** Azərbaycana bu qədər vəsait qoyursunuz, 81 milyon manat investisiya çox böyük rəqəmdir. Bu investisiyalar şirkətiniz, yəni Çin şirkəti tərəfindən qoyulur. İndi mən gördüm ki, işçilərin sayı da 500-ə yaxındır. Bu, eyni zamanda iş yerlərinin yaradılması proqramımıza da növbəti töhfədir. Əlbəttə ki, belə müəssisələr Çin-Azərbaycan dostluğunu daha da gücləndirir. Bu zavod cəmi bir il yarıma inşa edildi. Yəni ilyarım bundan əvvəl mən onun təməlini qoymuşam.

**Ciyi VANQ:** Bəli.

**Prezident İlham ƏLİYEV:** Ona görə əminəm ki, fəaliyyəti də uğurlu olacaq və siz işinizi davam etdirəcəksiniz.

**Ciyi VANQ:** Sizin köməyinizlə hər şey yaxşı olacaq.

**Prezident İlham ƏLİYEV:** Gözəl məhsuldur. İdxala da ehtiyac qalmır. Daxili bazarı təmin edəcəksiniz?

**Ciyi VANQ:** Təmin edəcəyik.

Dövlət başçısı müəssisəni işə saldı.

❖ ❖ ❖

Daha sonra "Kartaş Kimya" MMC-nin Tikinti kimyəvilərinin istehsalı müəssisəsinin təməli qoyuldu.

Prezident İlham Əliyevə müəssisə barədə məlumat verildi.

Diqqətə çatdırıldı ki, "Kartaş Kimya" MMC-yə 2022-ci ilin iyulunda Sumqayıt Kimya Sənaye Parkının rezidenti statusu verilib. Şirkət tərəfindən sənaye parkının 2,5 hektar ərazisində müxtəlif tikinti kimyəvilərinin istehsalını həyata keçirəcək müəssisə inşa ediləcək. İnvestisiya dəyəri 17 milyon manat olan müəssisədə 250 daimi iş yerinin yaradılması nəzərdə tutulur. İstehsal olunan məhsullar daxili bazara satılmaqla yanaşı, Türkiyə və MDB ölkələrinə ixrac ediləcək.

Dövlət başçısı müəssisənin təməlini qoydu.



















## Prezident İlham Əliyevin Sumqayıt şəhərinə səfəri

# Sumqayıt şəhəri inkişafının yeni dövrünü yaşayır

## Prezident İlham Əliyev Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunda yaradılan şəraitlə tanış olub









**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunda yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub.**

AZƏRTAC xəbər verir ki, Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov dövlət başçısına stadionda görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunun yenidən qurulmasına Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 21 noyabr tarixli sərəncamına əsasən 2020-ci ildə başlanılıb. Tikinti işləri mərhələli şəkildə icra edilməklə 2022-ci ildə başa çatdırılıb.

Tamaşaçı tutumu 9502 nəfər olan stadionun ərazisi 6,8 hektardır. İyirmi iki sektordan ibarət stadionda 545 nəfərlik VİP və KİV tribunası da yaradılıb, ərazi abadlaşdırılıb, yaşıllıq zonaları salınıb.

Bildirildi ki, tikilialtı sahədə cüdo, boks və karate zalları fəaliyyət göstərəcək. Burada eyni zamanda 2 trenajor otağı, 40 nəfərlik konfrans zalı, inzibati otaqlar, jurnalistlər, hakim, həkim, şərhçilər, məşqçilər üçün otaqlar və digər texniki-köməkçi otaqlar var.

Son illər ölkəmizdə idmanın inkişafına böyük diqqət və qayğı göstərilir. Bunun nəticəsidir ki, bu gün Azərbaycan idmançıları beynəlxalq yarışlarda yüksək göstəricilər əldə edir, üçrəngli bayrağımızı ucaldırlar. Bütün bunlar göstərir ki, ölkəmizdə idmanın inkişafının və onun kütləviliyinin təmin olunması istiqamətində dövlət siyasəti uğurla davam etdirilir. Bu diqqət və qayğı həm də yeni nəslin sağlam ruhda böyüməsinə, gənclərin idmana marağının artırılmasına yönəlib ki, belə idman obyektlərinin istifadəyə verilməsi bu məqsədin həyata keçirilməsində mühüm rol oynayır.

## Sumqayıtda 2 saylı şəhər xəstəxanasının yeni binasının açılışı olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də 2 saylı Sumqayıt Şəhər Xəstəxanasının yeni binasının açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, səhiyyə naziri Teymur Musayev dövlət başçısına xəstəxanada yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, 150 çarpayılıq xəstəxananın bina və qurğuları 6,1 hektar sahədə inşa edilib, tikililərin ümumi sahəsi 18 min 288,4 kvadratmetrdir.

Qeyd edildi ki, səhiyyə ocağının tikinti işlərinə 2019-cu ildə başlanılıb və 2022-ci ildə başa çatdırılıb.

Xəstəxana poliklinika, təcili tibbi yardım, 30 çarpayılıq terapiya, 30 çarpayılıq cərrahiyyə, şüa diaqnostika, hemodializ, oftalmologiya, endokrinoloji terapiya, endokrinoloji cərrahiyyə, nevrologiya, 10 çarpayılıq əməliyyat bloku, reanimasiya və sair şöbələrdən, həmçinin laboratoriyadan, digər tikili və qurğulardan ibarətdir.

Müalicə ocağı müasir tələblərə cavab verən və böyük vəsait tələb edən tibbi avadanlıqlar - çoxkəsikli kompüter tomoqrafiyası (KT), rəqəmsal teleskopik rentgen cihazı, rəqəmsal DR rentgen qurğusu, oftalmoloji müayinə üçün mikroskop, oftalmoloji cərrahi əməliyyatlar üçün PHACO AMO cihazı və iki ədəd rəqəmsal stasionar ultrasəs müayinə cihazı ilə təchiz olunub.

Xəstəxananın həyəti abadlaşdırılıb, yaşıllıq sahələri salınıb.

Qeyd edək ki, Prezident İlham Əliyevin tapşırığı ilə son illər Azərbaycanda səhiyyə sisteminin təkmilləşdirilməsi, onun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm işlər görülüb. Bu sahədə aparılan davamlı islahatlar, həyata keçirilən layihələr sayəsində ölkəmizdə əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyəti və əhatə dairəsi yüksəlib. Görülən işlər əhalinin sağlamlığının qorunmasına, onların hərtərəfli tibbi xidmətlərlə əhatə olunmasına imkan verir ki, bu da vətəndaşlar tərəfindən məmnunluqla qarşılanır.







## Ceyhun Bayramov İran Prezidentini sülh gündəliyi üzrə atılan addımlar barədə məlumatlandırıb



**Oktyabrın 23-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Tehranda "3+3" formatında birinci nazirlər görüşündə iştirakı çərçivəsində İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan və İran arasında gündəlikdə duran əsas məsələlər, ikitərəfli və çoxtərəfli formatlarda mövcud əməkdaşlıq imkanları, Azərbaycan-Ermənistan normallaşma və sülh prosesinin perspektivləri, habelə bölgədəki cari vəziyyət barədə fikir mübadiləsi aparılıb.

İki ölkə arasında son aylarda keçirilmiş görüşlər və ikitərəfli iqtisadi komissiya çərçivəsində təmaslar, bir sıra istiqamətlərdə artan əməkdaşlıq dinamikası məmnunluqla qeyd olunub, yüksəksəviyyəli görüşlərin və qurumlararası təmasların daha da genişləndirilməsinin əhəmiyyəti vurğulanıb.

Görüşdə nazir Ceyhun Bayramov 24 saatlıq antiterror tədbirlərindən sonra Azərbaycanın öz əraziləri üzərində tam suverenliyi bərpa etdiyi, sülh gündəliyi üzrə atılan addımlar barədə qarşı tərəfi məlumatlandıraraq bölgədə sülh və təhlükəsizliyin bərqərar olunmasında, regiona davamlı sülhün gətirilməsində, habelə regional əməkdaşlığın təşviqində ölkəmizin qərarlılığını bir daha diqqətə çatdırıb.

## Azərbaycanın xarici işlər naziri Tehranda "3+3" formatının nazirlər səviyyəsində keçirilən birinci görüşündə iştirak edib

**Oktyabrın 23-də xarici işlər naziri Ceyhun Bayramov İran İslam Respublikasının Tehran şəhərində "3+3" regional məşvərət formatının nazirlər səviyyəsində keçirilən birinci görüşündə iştirak və çıxış edib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazir çıxışında qeyd olunan formatın regional problemlərin region ölkələri tərəfindən həlli yollarını nəzərdən keçirmək məqsədilə yaradıldığını qeyd edib.

Platformanın mövcud ikitərəfli və digər əməkdaşlıq formatlarını tamamlamaq, regionda təhlükəsizliyi və sabitliyi gücləndirmək, iqtisadi artım və tərəqqi naminə istifadə edilməmiş potensialı üzə çıxarmaq üçün əhəmiyyətli potensiala malik olduğunu bildirib.

Region ölkələrinin qarşılıqlı fəaliyyət və əməkdaşlığının təməl daşı kimi suverenliyə, ərazi bütövlüyünə və bir-birilərinin sərhədlərinin toxunulmazlığına hörmətin, daxili işlərə qarışmamağın vacibliyini vurğulayıb.



Nazir çıxışında Azərbaycan, Gürcüstan və Türkiyənin iştirakı ilə Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin, Rusiya, Azərbaycan və İranın iştirakı ilə Şimal-Cənub dəhlizinin və Azərbaycan-İran-Türkiyə üçtərəfli formatının yalnız bir dövlətin xeyrinə deyil, hər kəsin ortaq mənfəəti olduğunu əyani şəkildə nümayiş etdirdiyini, bu layihələrin və formatların müsbət təsirinin region ölkələri ilə məhdudlaşmadığını və daha geniş coğrafiyada tərəfdaşlarımızı əhatə etdiyini diqqətə çatdırıb. Regional bağlantıların təşviqinin yalnız tranzit və nəqliyyat sahələrində deyil, enerji təhlükəsizliyi və energetika kimi sahələrdə istifadə olunmamış geniş potensialdan faydalanmaq üçün də vacib olduğunu qeyd edib. Region ölkələri arasında bağlantıların iqtisadi faydaları ilə yanaşı, müsbət qarşılıqlı asılılığa təkan vermək və beləliklə, sülh və sabitliyə töhfə vermək baxımından da eyni dərəcədə əhəmiyyətli olduğunu bildirib.

Nazir çıxışında Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında İran İslam Respublikasının ərazisindən keçməklə nəqliyyat əlaqələrinin yaradılması istiqamətində son inkişafların xüsusi əhəmiyyət kəsb etdiyini, infrastruktur layihələrinin tezliklə yekunlaşdırılması və bu marşrutun istismara verilməsinin regionumuzda bu iki dövlət arasında qarşılıqlı faydalı əməkdaşlığa xidmət edəcəyini, həmçinin Avrasiyada nəqliyyat və tranzit potensialının artırılması üçün yeni bağlantı arteriyasını yaradacağını vurğulayıb.

O, Azərbaycan ərazilərinin işğalına son qoyulması və suverenliyimizin tam bərpasının Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması üçün yeni perspektiv açdığını diqqətə çatdırıb. Nazir Azərbaycanla Ermənistan arasında münasibətlərin bir-birinin suverenliyinin, ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının qarşılıqlı tanınması və hörmət əsasında normallaşmasının təkcə bu ölkələrin xeyrinə olmayacağını, həm də əməkdaşlıq və tərəqqi üçün istifadə edilməmiş potensialdan faydalanmağa imkan yaradacağını bildirib.

Nazir çıxışında Azərbaycanın Ermənistanla bir-birinin legitim maraqlarına qarşılıqlı hörmət əsasında ədalətli və bərabərhüquqlu sülh təklifini bir daha diqqətə çatdırıb və sülh müqaviləsi çərçivəsində məsələlərin tezliklə yekunlaşması məqsədilə Ermənistan tərəfindən qarşılıqlı addımlar və konstruktiv yanaşma gözlədiyimizi, tam regional normallaşma üçün bu unikal şansın bir daha əldən verilməyəcəyinə ümidvar olduğumuzu diqqətə çatdırıb.

# Azərbaycan ilə Tacikistan arasında hərbi əməkdaşlıq məsələləri müzakirə edilib



**Oktyabrın 23-də Tacikistan Respublikasının müdafiə naziri general-polkovnik Şerali Mirzonun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfər edib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, nümayəndə heyəti Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın, Şəhidlər xiyabanında isə ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarlarını ziyarət edərək gül dəstələri düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Müdafiə Nazirliyində təntənəli qarşılama mərasimi keçirilib. Fəxri qarovulun önündən keçildikdən sonra hər iki ölkənin dövlət himnləri səsləndirilib. General-polkovnik Ş.Mirzo protokola uyğun olaraq "Şərəf kitabı"nı imzalayıb.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov nümayəndə heyətini salamlayaraq onları ölkəmizdə görməkdən məmnunluğunu bildirib. Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunda aparılan islahatlar, azad edilən ərazilərdə görülən işlər barədə danışıb.

Azərbaycana səfərindən məmnunluq ifadə edən Tacikistanın müdafiə naziri isə öz növbəsində səmimi görüşə görə minnətdarlığını çatdırıb. 18 Oktyabr - Müstəqilliyin Bərpası Günü münasibətilə azərbaycanlı həmkarını təbrik edib.

Ölkələrimiz arasında hərbi əməkdaşlığın daha da genişləndirilməsi baxımından belə görüşlərin vacibliyi qeyd olunub. Ordu quruculuğu istiqamətində, həmçinin hərbi-texniki sahədə qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyəti xüsusi vurğulanıb.

Görüşdə Azərbaycan ilə Tacikistan arasında hərbi, hərbi-texniki, hərbi təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran bir sıra məsələlər də müzakirə edilib.

# Qırğızıstan Hesablama Palatasının nümayəndə heyəti ilə görüş

**Oktyabrın 23-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili və komitə üzvləri ölkəmizdə səfərdə olan Qırğızıstan Respublikası Hesablama Palatasının sədri Almazbek Akmatovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüblər.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları ölkəmizdə salamlamaqdan məmnunluğunu bildirən Tahir Mirkişili onlarla Azərbaycanın iqtisadi göstəriciləri, Milli Məclisdə büdcə müzakirələrinin keçirilməsi prosesi, parlamentin büdcəyə nəzarəti, Hesablama Palatasının rolu, ölkəmizin öz ərazilərini Ermənistanın işğalından azad etməsindən sonra həmin ərazilərdə aparılan tikinti-quruculuq işləri, bu məqsədlə büdcədən ayrılan vəsaitlər və həyata keçirilən dövlət proqramları, Ermənistan tərəfindən basdırılmış minaların yaratdığı təhlükələr barədə fikirlərini bölüşüb.

Ölkəmizə səfərindən razılıqla danışan Qırğızıstan Respublikası Hesablama Palatasının sədri Almazbek Akmatov türkdilli ölkələr arasında əməkdaşlıq, Qırğızıstan və Azərbaycanın Hesablama palataları arasında təcrübə mübadiləsi, Qırğızıstanın həyata keçirdiyi iqtisadi layihələr, dövlət büdcəsinin gəlir və xərcləri barədə Milli Məclisin deputatlarına məlumat verib, onları maraqlandıran suallara aydınlıq gətirib.

Söhbət zamanı parlamentlərlə Hesablama palataları arasında qarşılıqlı əlaqələr, iki ölkənin Hesablama palatalarının qarşılıqlı təcrübə mübadiləsi və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Qiymətləndirmə fəaliyyəti yeni qanunla tənzimlənəcək



**Oktyabrın 23-də Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda ikinci oxunuşda olan üç qanun layihəsi müzakirə edilib.**

İlk iki məsələnin yeni qanun layihələri olduğunu deyən komitə sədri Tahir Mirkişili sənədlərlə bağlı birinci oxunuşunda həm komitədə, həm də plenar iclasda ətraflı məlumat verildiyini və müzakirələrdə layihələrlə bağlı bir sıra təkliflərin irəli sürüldüyünü diqqətə çatdırıb.

Birinci məsələ olan "Qiymətləndirmə fəaliyyəti haqqında" qanun layihəsinin ikinci oxunuşu barədə məlumat verən komitə sədri sənədə dair komitəyə daxil olan təkliflərdən danışıb, maddi və qeyri-maddi nemətlərin qiymətləndirilməsi, yaradılacaq Qiymətləndiricilər Palatasına seçkilərin, Rəyasət Heyəti sədrinin seçkisinin keçirilməsi kimi məsələlərə münasibətini bildirib, qiymətləndirmə fəaliyyətində obyektivliyin və ədalətliliyin qorunması ilə bağlı fikirlərini bölüşüb.

Komitə sədri daha sonra "Aviasiya haqqında" qanun layihəsi barədə məlumat verib. Qeyd olunub ki, 15 fəsil, 68 maddədən ibarət qanun layihəsində Azərbaycanın hava məkanından istifadə və aviasiya sahəsində fəaliyyətin tənzimlənməsi məsələləri əksini tapıb.

Qanun layihələrinin müzakirəsində komitənin sədr müavini Əli Məsimli, üzvləri Vahid Əhmədov, Vüqar Bayramov, Məzahir Əfəndiyev fikirlərini bildiriblər. Müzakirələrin sonunda qanun layihələri ikinci oxunuşda müzakirə üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Sonra komitədə mühasibat uçotunu məcburi qaydada elektron formada aparacaq mühasibat uçotu subyektlərinin dairəsinin müəyyən edilməsi məqsədilə hazırlanan "Mühasibat uçotu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə (ikinci oxunuş) baxılıb. Komitə sədri layihə ilə bağlı deputatların təklifləri barədə məlumat verib və onların qanunverici subyektlə razılaşdırma mərhələsində olduğunu bildirib.

Sənədlə bağlı deputatlar Əli Məsimlinin, Ziyad Səmədzadənin və İqbal Məmmədovun fikirləri dinlənildikdən sonra qanun layihəsi ikinci oxunuşda müzakirə üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Sonra iclasda cari məsələlərlə bağlı müzakirələr keçirilib. Cari məsələlərdə komitə sədri Tahir Mirkişili ölkəmizin bədxahları tərəfindən Azərbaycana qarşı sərgilənən qərəzli və ədalətsiz mövqe barədə danışıb, öz suverenliyini və ərazi bütövlüyünü tam bərpa edən Azərbaycanın şanlı qələbəsini həzm edə bilməyən qüvvələrin bizə qarşı əsassız bəyanatlar səsləndirməsi, qarayaxma kampaniyalarına əl atması haqqında fikirlərini bölüşüb. Komitə üzvləri Azərbaycanın haqq səsinin, bölgədə baş verən proseslərin, Qarabağ iqtisadi rayonunda yaşayan erməniəsilli Azərbaycan vətəndaşlarının reinteqrasiyası ilə bağlı görülən işlərin geniş beynəlxalq ictimaiyyətə çatdırılması barədə fikir mübadiləsi aparıblar.

*"Azərbaycan"*

# Abşerondakı yeni yaşayış məntəqəsi "Şəfəq" adlandırılacaq

**Oktyabrın 23-də Azərbaycan Respublikasının Milli Məclisi yanında Toponimiya Komissiyasının iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda Abşeron rayonunun inzibati ərazisində yeni salınmış yaşayış məntəqəsinə ad verilməsi barədə məsələ müzakirə edilib.**



Komissiya sədri İsa Həbibbəyli Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Qarabağda qazanılan tarixi qələbə, ölkə Prezidentinin Xankəndi, Xocalı, Xocavənd və Ağdərədə Dövlət bayrağını ucaltması və bununla Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpa edilməsi ilə bağlı fikirlərini bölüşüb. O, bölgədə yaranmış yeni reallıqlar çərçivəsində işğaldan azad olunmuş ərazilərdə bir çox yer adlarının dəyişdirilməsi ilə əlaqədar məsələlərə Toponimiya Komissiyasında baxıldığını və müvafiq qərarların qəbul edildiyini söyləyib.

Komissiya sədri iclasda müzakirəyə çıxarılan məsələnin mahiyyəti barədə danışaraq, Abşeron rayonunun inzibati ərazisində yeni salınmış yaşayış məntəqəsinə ad verilməsi ilə bağlı vətəndaşlardan müraciət daxil olduğunu bildirib. O qeyd edib ki, müraciətdə bu yaşayış məntəqəsinə "Şəfəq" adının verilməsi təklif olunub.

Məsələ ətrafında aparılan müzakirələrdə Toponimiya Komissiyasının sədr müavini Sevinc Fətəliyeva, komissiyanın üzvləri - parlamentin komitə sədri Musa Quliyev, deputat Sabir Rüstəmxanlı, Azərbaycan Milli Elmlər Akademiyasının müşaviri Möhsün Nağısoylu, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi Akif İmanlı, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun aparıcı elmi işçisi Elşad Abışov, Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov, parlament Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyid çıxış ediblər.

İclasda Abşeron rayonunun inzibati ərazisində salınmış yeni yaşayış məntəqəsinin "Şəfəq" adlandırılması məqsədəmüvafiq hesab olunub.

*"Azərbaycan"*

# Gələn il müdafiə və sosial təminat üzrə xərclər artırılacaq



**Ölkəmizdə dövlət büdcəsindən müxtəlif istiqamətlərə ayrılan vəsaitin həcmi hər il artır. Bu, ilk növbədə Azərbaycan iqtisadiyyatının sürətli inkişafının göstəricisidir. Gələn ilin dövlət büdcəsindəki artımlar da təsdiq edir ki, tarixinin ən qüdrətli Azərbaycanının iqtisadi imkanları gündən-günə genişlənir.**

2024-cü il üçün dövlət büdcəsinin gəlirləri 34 milyard 173 milyon, xərcləri isə 36 milyard 763 milyon manat məbləğində proqnozlaşdırılır. Büdcəyə daxilolmalar nəticəsində müxtəlif sahələrə ayrılan məbləğ də 2023-cü illə müqayisədə artırılacaq. Hər zaman olduğu kimi, bu il də sosial müdafiənin gücləndirilməsi və milli təhlükəsizlik prioritet sayılır. Bütün bunlar isə ölkəmizin davamlı inkişafının, neft sektoru ilə yanaşı, qeyri-neft sektorunun da yüksəlişinin göstəricidir.

Təbii ki, növbəti ilin büdcəsindən 4 milyard manata yaxın vəsaitin Qarabağ və Şərqi Zəngəzurun bərpası və yenidən qurulması üçün ayrılması da qarşıda duran prioritet istiqamətin əsasən işğaldan azad olunmuş ərazilər olduğunu göstərir. Bu isə quruculuq işlərini sürətləndirməklə keçmiş məcburi köçkünlərin qısa zamanda yurdlarına qayıdışlarını da tezləşdirəcək.

Milli Məclisin deputatı Vüqar Bayramov "Azərbaycan" qəzetinə açıqlamasında deyib ki, 2024-cü ilin dövlət büdcəsi sosial yönümlülüyünü qoruyub saxlayacaq. Deputat bildirib ki, büdcənin sosial təminat və sosial müdafiə xərclərində artım proqnozlaşdırılır: "Gələn il birbaşa sosial ayırmalar 4,5 milyard manatdan çox olacaq. Eyni zamanda büdcə xərclərinin 45 faizindən çoxunun sosial istiqamətə yönəldilməsi nəzərdə tutulur. Digər bir sıra xərclərdə də artım nəzərdə tutulur, o cümlədən təhsil xərcləri bu ilə nisbətən gələn il artacaq".

V.Bayramov qeyd edib ki, dövlət büdcəsindən işğaldan azad olunmuş ərazilərimizin bərpa və yenidən qurulması üçün 3 milyard 825 milyon manat vəsaitin ayrılması planlaşdırılır. Bu da ondan xəbər verir ki, 2024-cü ildə də Qarabağ və Şərqi Zəngəzurun bərpa və yenidənqurma prosesi daha intensiv şəkildə davam edəcək. Bu həm də məskunlaşmanın sürətlənməsinə imkan verəcək.

Deputat vurğulayıb ki, büdcə gəlirləri dayanıqlıdır. Qeyri-neft sektorunun büdcədə payının artması, xüsusən mənbələrin şaxələnməsi daha dayanıqlı fiskal siyasətin həyata keçirilməsinə imkan yaradacaq: "Bu baxımdan 2024-cü ilin dövlət büdcəsi bir tərəfdən fiskal dayanıqlığı, digər tərəfdən sosial təminat tədbirlərinin, o cümlədən milli təhlükəsizliyin gücləndirilməsi, Qarabağ və Şərqi Zəngəzurun bərpası daxil olmaqla bir sıra prioritet sahələrə daha çox vəsaitin ayrılmasını reallaşdıracaq".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycan ilə UNICEF arasında əməkdaşlıq məsələləri müzakirə edilib

**Oktyabrın 23-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Aleks Haykens ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdə Bahar Muradova UNICEF ilə Azərbaycan və Dövlət Komitəsi arasındakı əməkdaşlığın hər zaman qarşılıqlı maraqlara söykəndiyini vurğulayıb. Komitə sədri fövqəladə hallarda uşaqların müdafiəsi ilə bağlı, xüsusilə də işğaldan azad olunmuş ərazilərdə, eləcə də pandemiya dövründə birlikdə icra edilən layihələr barədə fikirlərini bölüşüb.

B.Muradova həmçinin uşaq strategiyası və ona dair fəaliyyət planı istiqamətində öhdəliklərin yerinə yetirilməsi barədə danışıb. Eyni zamanda UNICEF-Azərbaycan 2021-2025-ci illər üçün ölkə sənədi üzrə müəyyən öhdəliklərin olduğunu və bütün sahələrdə fəaliyyət istiqamətlərin müəyyənləşdiyini deyib. Bu istiqamətdə əməkdaşlığın yüksələn xətt üzrə inkişafı baxımından hər iki tərəfin səylərini artırmasının əhəmiyyətini vurğulayıb.

Komitə sədri eyni zamanda erkən uşaqlıq dövrü inkişafına dair sənədin hazırlanaraq aidiyyəti quruma təqdim edildiyini söyləyib. O bu istiqamətdə təcrübə mübadiləsinə ehtiyac olduğunu diqqətə çatdırıb.

UNICEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri Aleks Haykens ötən dövr ərzində yaxşı işlərin görüldüyünü, lakin əməkdaşlığın dərinləşdirilməsinə ehtiyac olduğunu vurğulayıb. Xüsusilə uşaqların hüquqlarının təmin olunmasında və digər məsələlərdə daha uğurlu nəticələrin qazanılması üçün birgə fəaliyyətin istiqamətlərinin genişləndirilməsinin əhəmiyyətini qeyd edib.

Aleks Haykens Azərbaycanda uşaq strategiyası və onun həyata keçirilməsi ilə bağlı milli fəaliyyət planını yüksək qiymətləndirib. Eyni zamanda uşaq qaynar xəttinin fəaliyyətini, uşaqlara qarşı zorakılıq halları ilə bağlı hesabatların, məlumatların əlçatan olmasını xüsusi vurğulayıb.

"Azərbaycanda fəaliyyətim dövründə tarixi nöqteyi-nəzərdən önəmli hadisələr baş verib. Bu spesifik və səciyyəvi vaxtda Azərbaycanda olmağımdan çox məmnunam. Mənim üçün Qarabağla bağlı ən böyük nailiyyət uşaqların oraya qayıdaraq öz layiqli həyatlarını davam etdirmələri olacaq", - deyə UNICEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri bildirib.

Görüş qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsi ilə davam edib.

# Baş prokuror Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin Baş Prokurorları Şurasının 2-ci iclasında iştirak edib



**Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin Baş Prokurorları Şurasının 2-ci iclasında iştirak etmək məqsədilə Ankara şəhərinə işgüzar səfərə gedib.**

Tədbirdən əvvəl Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərə - Anıtqəbir ziyarət edilib, böyük Atatürkün əziz xatirəsi ehtiramla anılıb.

TDT-yə üzv Dövlətlərin Baş Prokurorları Şurasının ikinci iclasında çıxış edən Türkiyə Ali Məhkəməsinin Baş prokuroru Bekir Şahin, Ali Məhkəmənin sədri Mehmet Akarca, ədliyyə naziri Yılmaz Tunç, TDT-nin Baş katibi Kubaniçbek Ömüralıyev və Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım iştirakçılara tədbirin əhəmiyyətini vurğulayıb.

Baş prokuror Kamran Əliyev çıxış edərək Türk Dövlətləri Təşkilatına üzv Dövlətlərdə qanunçuluğun və hüquq qaydasının təmin edilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi, cinayətkarlığın bütün formalarına qarşı mübarizə sahəsində səylərin birləşdirilməsinə və qarşılıqlı əməkdaşlığın daha səmərəli həyata keçirilməsinə mühüm töhfə verəcəyini bildirib. TDT Baş Prokurorları Şurasının 2-ci toplantısının Türkiyə Cümhuriyyətinin qurulmasının 100 illiyi ərəfəsində keçirilməsinin xüsusi əhəmiyyəti qeyd edilib.

Kamran Əliyev üç il əvvəl Azərbaycan torpaqlarının otuzillik işğalına son qoyulduğunu, tarixi ədalətin və beynəlxalq hüququn bərpa edildiyini vurğulayıb. İşğal bitsə də, onun ağır fəsadlarının hələ də qalmaqda olduğunu bildirən Baş prokuror Azərbaycanın 9 şəhəri və yüzlərlə kəndinin Ermənistan tərəfindən vəhşicəsinə dağıdıldığını qeyd edib. İkinci Qarabağ müharibəsi başa çatandan sonra bu günə qədər 300-dən çox Azərbaycan vətəndaşının mina terrorunun qurbanı olduğu və ya ağır yaralandığı bildirilib.

Həmçinin Baş prokuror Azərbaycan Ordusu tərəfindən bir ay öncə lokal xarakterli antiterror tədbirlərinə başlanıldığı və qarşıda duran bütün vəzifələrin cəmi bir gün ərzində yerinə yetirilərək ölkəmizin ərazi bütövlüyünün tam şəkildə bərpa olunduğunu xüsusi vurğulayıb.

Bu il oktyabrın 15-də isə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən ölkəmizin üçrəngli bayrağının əzəli torpaqlarımız olan Ağdərə, Xocavənd, Xocalı, Əsgəran və nəhayət, Xankəndidə qaldırıldığı qeyd olunub.

Ermənistan tərəfindən Azərbaycanın Qarabağ bölgəsində iqtisadi və sosial infrastrukturun tamamilə dağıdıldığı, bu gün həmin ərazilərdə ölkə rəhbərliyinin diqqət və qayğısı ilə sürətli yenidənqurma işlərinin uğurla aparıldığı diqqətə çatdırılıb.

Bundan başqa, Azərbaycan Respublikasının tərəfdar çıxdığı müqavilə və konvensiyalardan irəli gələn öhdəliklərə əməl olunması, o cümlədən cinayət işləri üzrə hüquqi yardımın göstərilməsi, cinayət törətmiş şəxslərin verilməsi, cinayət təqibinin həyata keçirilməsi ilə bağlı sorğuların və digər sənədlərin icrasının həyata keçirildiyi bildirilib.

Sonda Ankara bəyanatı qəbul edilib, növbəti iclasın Qırğızıstanda keçirilməsi qərara alınıb.

Baş Prokurorluğun nümayəndə heyətinin Türkiyəyə işgüzar səfəri davam edir.

# Azərbaycan Mühəndislik Akademiyası Ümumdünya Mühəndislik Təşkilatları Federasiyasına üzv seçilib

**Azərbaycan Mühəndislik Akademiyası UNESCO-nun nəzdindəki Ümumdünya Mühəndislik Təşkilatları Federasiyasına (World Federation of Engineering Organizations - WFEO) oktyabrın 13-də keçirilən İcraçılar Şurasında və oktyabrın 14-də keçirilən Baş Assambleyanın iclasında gizli səsvermə yolu ilə yekdilliklə tamhüquqlu üzvü seçilib.**

Bu barədə AZƏRTAC-a Azərbaycan Mühəndislik Akademiyasından məlumat verilib. Bildirilib ki, Azərbaycan bu böyük uğura Mühəndislik Akademiyasının prezidenti akademik Arif Paşayevin dəstəyi ilə və akademiyanın əməkdaşlarının zəhməti nəticəsində nail olub. Mühəndislik Akademiyası bu mötəbər beynəlxalq təşkilatda Azərbaycanın yerləşdiyi coğrafiyada və Yaxın Şərqdə yeganə təşkilatdır.

Mühəndislik peşəsi üçün ən yüksək orqan olan Ümumdünya Mühəndislik Təşkilatları Federasiyası (WFEO) UNESCO-nun himayəsi altında 1968-ci ildə yaradılıb. Federasiya 100-dən çox ölkəni və 30 milyona yaxın mühəndisi təmsil edir.

WFEO - Birləşmiş Millətlər Təşkilatı tərəfindən elm və texnika sahəsində aparıcı qeyri-hökumət təşkilatı kimi tanınan mühəndisliyin beynəlxalq səsidir. O, elm və mühəndislik sahəsində əsas qlobal problemləri həll etmək üçün, xüsusilə mühəndislik vasitəsilə BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə kömək üçün UNESCO da daxil olmaqla BMT orqanları ilə sıx əməkdaşlıq edir.

Azərbaycan Mühəndislik Akademiyasının WFEO ilə əməkdaşlığı sahəsində mühəndislik ideyalarının dünya birliyinə inteqrasiyası sürətlənərək, akademiyanın nailiyyətləri daha da artacaq, gələcəkdə müxtəlif ölkələrlə beynəlxalq əməkdaşlıq inkişaf edəcək və hüdudları digər akademiyalarla genişlənəcək. Bu nailiyyət aparıcı alimlər, mühəndislər və tədqiqatçılar üçün öz elmi nəticələrini bölüşmək, aktiv müzakirələr aparmaq və texniki proqramlar hazırlamaq üçün ən yaxşı platformadır.

# Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi Almaniya Bundestaqının Xarici əlaqələr komitəsinin sədrinin bəyanatına etirazını bildirib

**Almaniya Bundestaqının Xarici əlaqələr komitəsinin sədri Maykl Rotun İrəvana səfəri zamanı verdiyi qeyri-obyektiv, mövcud reallıqları təhrif edən bəyanatları təəssüf doğurur.**

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin etiraz bəyanatında bildirilib.

Qeyd edilib ki, növbəti dəfə Ermənistan rəhbərliyinin havadarlarının öz yalan iddiaları ilə beynəlxalq ictimaiyyəti aldatmasının şahidi oluruq.

Təəssüflər olsun ki, Almaniya Bundestaqındakı destruktiv qüvvələrin təsiri və təzyiqi Azərbaycana qarşı bu cür qeyri-obyektiv addımların atılmasına və bəyanatların səsləndirilməsinə rəvac verir. Bu fakt öz-özlüyündə həmin bəyanatlarda irəli sürülən iddiaların nə dərəcədə əsassız olduğunu bariz şəkildə nümayiş etdirir.

"Verilən bəyanatlar bir sıra məqamlarına görə xüsusilə narazılıq doğurur. Azərbaycanın Qarabağ bölgəsinin adının təhrif edilməsini ölkəmizin ərazi bütövlüyünə qarşı atılmış addım kimi qəbul edirik. Almaniya Bundestaqına BMT-nin ixtisaslaşmış qurumlarının bölgəyə iki dəfə səfər etdiyini və mülki əhaliyə qarşı heç bir zorakılıq hallarının baş vermədiyini öz hesabatlarında təsdiqlədiyini xatırlatmaq istərdik. Biz, öz növbəmizdə, almaniyalı həmkarımızın Ermənistanın 30 il ərzində Azərbaycana qarşı törətdiyi hərbi cinayətlərlə bağlı, o cümlədən həm Ermənistanda, həm də Azərbaycanda mədəni abidələrin dağıdılması, tarixi irsin silinməsinə görə Ermənistana sanksiyaların tətbiq olunması üçün çağırış etmədiyi halda, Azərbaycanı sanksiyalarla hədələməsini siyasi riyakarlıq kimi qiymətləndirir, ikili standartların bariz nümunəsi kimi qəbul edirik.

Azərbaycan Respublikasının Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi olaraq Almaniya Bundestaqının Xarici Əlaqələr Komitəsinin sədri Maykl Rotun verdiyi bəyanatları bir daha qətiyyətlə rədd edirik", - deyə vurğulanıb.

# İstanbulda OANA-nın İcraiyyə Komitəsinin iclası keçirilib

**İstanbulda Anadolu Agentliyinin təşkilatçılığı ilə Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatının (OANA) İcraiyyə Komitəsinin növbəti iclası keçirilib.**



İclasda OANA-nın vitse-prezidenti və İcraiyyə Komitəsinin üzvü olan AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev iştirak edib.

Tədbirdə Anadolu agentliyinin baş direktoru Sərdar Karagöz və təşkilatın sədri, İranın İRNA agentliyinin baş direktoru Əli Nadiri OANA-nın təkmilləşdirilməsi istiqamətlərini qeyd edərək, üzvləri bu işdə fəal olmağa çağırıblar.

Həmçinin təşkilatın maliyyə və texniki hesabatları dinlənilib və qəbul olunub. Bildirilib ki, İRNA agentliyi OANA-nın yeni veb-saytının layihəsini hazırlayıb və portalın yaxın vaxtlarda işə düşməsi nəzərdə tutulur.

Bundan əlavə, iclas zamanı "OANA Mükafatı"nın qalibləri elan edilib. Birinci yeri Çinin Sinxua agentliyi tutub.

İcraiyyə Komitəsi üzvlərinin qərarına əsasən, növbəti iclas gələn ilin martında Kyodo agentliyi tərəfindən Tokioda keçiriləcək.

Yekunda İstanbul Bəyannaməsi qəbul edilib.

Dörd bənddən ibarət bəyannamədə rəqəmsal dövrdə dezinformasiyanın müasir və ənənəvi media vasitəsilə geniş yayıldığı vurğulanıb. Qeyd edilib ki, bu, auditoriyada hadisələr barədə təhrif olunmuş və yanlış təsəvvür formalaşdırır. İnformasiya qurumlarının dezinformasiya ilə mübarizədə peşəkar borclarını yerinə yetirməsi, auditoriyaya tam və balanslı məlumatlar təqdim etməsi gözlənilir.

Bəyannamədə həmçinin OANA-nın dezinformasiya ilə mübarizə aparmaq üçün xəbər agentlikləri arasında regional və beynəlxalq əməkdaşlığı gücləndirməsinin önəmi ifadə olunub.

"OANA insanları etibarlı və etibarsız xəbər mənbələrini müəyyənləşdirməyə kömək etmək və onlarda tənqidi düşüncənin, faktların yoxlanmasının vacibliyi üçün media savadlılığının artırılmasını təşviq edir.

OANA İsrail ilə Fələstin arasındakı gərginlik nəticəsində yaranmış vəziyyətdən dərin narahatdır. Həmin bölgədə jurnalistlərin müdafiəsinə, bütün qurum və təşkilatları jurnalistlərin təhlükəsizliyini təmin etmək üçün ən yüksək tədbirləri görməyə çağırır", - deyə Bəyannamədə bildirilib.

Xatırladaq ki, bu gün OANA-nın İcraiyyə Komitəsinin iclasından əvvəl "Xəbər agentliklərinin dezinformasiya ilə mübarizə sahəsində əməkdaşlığı" mövzusunda konfransı da təşkil olunub. AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev konfransda iştirak edib.

Qeyd edək ki, ən böyük regional media qurumu olan OANA 1961-ci ildə UNESCO-nun təşəbbüsü ilə yaradılıb. Qurumun üzvü olan agentliklər dünyada bütün informasiya axınının üçdəiki hissəsini təmin edir. OANA-nın məqsədi region ölkələrində informasiya axınına təkan vermək, inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlər arasındakı informasiya fərqini aradan qaldırmaq, xəbər agentliklərinin redaktə, təlim, kommunikasiya və texniki imkanlarını təkmilləşdirməkdir.

* * *

Oktyabrın 23-də İstanbulda Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) konfransı keçirilib.

"Xəbər agentliklərinin dezinformasiya ilə mübarizə sahəsində əməkdaşlığı" mövzusunda keçirilən konfransda AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev də iştirak edib.

Tədbirdə çıxış edən Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin rəhbəri Fahrettin Altun, Türkiyənin Anadolu Agentliyinin rəhbəri Serdar Karagöz, OANA-nın prezidenti və İRNA-nın icraçı direktoru Əli Naderi bildiriblər ki, OANA-nın builki konfransının mövzusunu müəyyən edilərkən dezinformasiyaya və onunla mübarizə strategiyalarına diqqət yetirilib. Oksford Universitetinin 2018-ci ildə 37 ölkədə apardığı araşdırmaya görə, Türkiyə 49 faizlə dezinformasiyaya ən çox məruz qalan ölkədir. Asiya-Sakit okean ölkələrinin də dezinformasiyaya çox məruz qaldığı müşahidə edilir. Bu səbəbdən builki konfrans üçün "Xəbər agentliklərinin dezinformasiya ilə mübarizə sahəsində əməkdaşlığı" mövzusu seçilib.

Anadolu Agentliyi barədə məlumat verən Serdar Karagöz rəhbərlik etdiyi qurumun 103 il əvvəl Türkiyənin Qurtuluş Savaşı zamanı Anadoludakı işğalçı qüvvələrə qarşı mübarizəni dünyaya çatdırmaq üçün yaradıldığını bildirib. Qeyd edilib ki, bu gün 13 dildə nəşrləri, 1800 işçi heyəti və 39 ölkədə ofisləri ilə Anadolu Agentliyi həm bölgənin, həm də dünyanın gündəmini təyin edən xəbər agentliklərindən biridir.

Tədbir panel iclaslarla davam etdirilib.

"Dezinformasiya ilə mübarizədə xəbər agentlikləri üçün əməkdaşlıq sahələri" mövzusunda panel iclasında çıxış edən AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev bildirib ki, dezinformasiya, feyk xəbər silahdır və onu yaradanların məqsədi də bu silahı cəmiyyətə qarşı çevirməkdir. Bunun kökündə isə şəxsi maraqlar dayanır. Dezinformasiyaya və feyk xəbərə müasir dövrümüzdə artan diqqətin sosial medianın və mesencerlərin bumu ilə bağlı olduğunu qeyd edən AZƏRTAC-ın İdarə Heyətinin sədri diqqətə çatdırıb ki, burada mobil texnologiyalar və sosial media tandemi xüsusi qeyd edilməlidir: "Əlbəttə, bu tandem insanların xəbərlərə çıxışını daha da asanlaşdırıb, medianın fəaliyyətini daha çevik edib. Eyni zamanda insanlar doğru xəbərlərlə yanaşı, feyk xəbərləri də mobil telefonlarında qəbul edir ki, bu da onların yanılmasına, kütləvi hallarda isə daha ağır fəsadlara gətirib çıxarır". O diqqətə çatdırıb ki, Azərbaycan dezinformasiyaya ən çox məruz qalan ölkələrdən biridir. Xüsusən də Qarabağ müharibəsi dövründə Azərbaycan cəmiyyəti daha çox feyk xəbərlərin təsirinə məruz qalmışdı.

Vüqar Əliyev təklif edib ki, OANA-nın veb-saytında feyk xəbərlərlə bağlı rubrika açılsın və hər bir agentlik üzə çıxardığı yalan informasiyanı orada yerləşdirsin: "Bu da bizim ictimaiyyətə bir töhfəmiz olar. Sözsüz ki, bu mexanizmlər yalnız media savadlılığına xidmət etməli və manipulyasiya aləti olmamalıdır. OANA feyk xəbərlər və dezinformasiya ilə mübarizədə daha aktiv olmalıdır və bunun üçün onun geniş imkanları var. Təşkilat hər bir ölkənin aparıcı xəbər agentliklərini birləşdirir və buradakı agentliklər doğru xəbər mənbəyi kimi güclü nüfuza malikdirlər. Həmçinin biz media savadlılığının artırılmasına da kömək göstərə bilərik. OANA-nın veb-saytında dezinformasiya, feyk xəbər, manipulyativ informasiya kimi anlayışlar barədə məlumatlar olan bölmə yaratmaq da ümumi işimizə töhfə verər".

AZƏRTAC-ın İdarə Heyətinin sədri vurğulayıb ki, əməkdaşlıq və təcrübə mübadiləsi hər birimizin maraqlarına xidmət edir. Ona görə də OANA çərçivəsində təcrübə mübadiləsi proqramlarına da yer ayırmaq lazımdır. Vüqar Əliyev bu kontekstdə AZƏRTAC-ın Anadolu və TASS agentlikləri ilə informasiya və kadr mübadiləsi istiqamətindəki əməkdaşlığını nümunə gətirib.

# Bakı Media Mərkəzi Hacı Zeynalabdin Tağıyev haqqında film çəkir







**Uzun illərdir media sektorunda böyük və yaddaqalan layihələrə imza atan Bakı Media Mərkəzi hazırda ölkəmiz üçün əhəmiyyətli bir filmin istehsalı üzərində çalışır. Bu, böyük mesenat və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin həyatından bəhs edən "Himayədar" filmidir. Filmdə həmçinin XIX əsrin sonu XX əsrin əvvəlində Bakı və bölgədə baş verən mühüm tarixi hadisələr öz əksini tapır.**



AZƏRTAC xəbər verir ki, tariximizin tanıdılmasında böyük əhəmiyyət kəsb edən bu ekran işinin çəkilişləri may ayında başlayıb və 120 çəkiliş gününün artıq 90-ı yekunlaşıb. Film ümumilikdə 8 seriyadan ibarət olacaq. Sözügedən layihənin kütləvi səhnələri üçün 1600 nəfər cəlb edilib, bundan başqa 70-dən çox məkanda çəkiliş aparılıb və 300-dən çox abidə tikilib.

Milli dəyərlərimizin təbliğinə töhfə verəcək bu böyük layihənin rəhbəri və prodüseri Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyevadır.

Çoxseriyalı filmin gələn il izləyicilərin ixtiyarına verilməsi nəzərdə tutulur. Belə ki, 2024-cü il böyük xeyriyyəçinin vəfatının 100 illiyidir. Ekran işinin tamaşaçılar və kinoseverlər tərəfindən böyük maraqla qarşılanacağı gözlənilir.

Qeyd edək ki, Bakı Media Mərkəzi Azərbaycanın audiovizual məhsulların istehsalı ilə məşğul olan aparıcı və innovativ media şirkətidir. Mərkəzin işləri sırasında "Hədəf Bakıdır. Hitler neft uğrunda döyüşü necə uduzdu", "Əbədi ezamiyyət", "Miras", "Multikulturalizm İli"nə həsr olunmuş "Bir günəş altında", "BİZ", "Şuşa, sən azadsan!" və digər filmlər yer alır.

# Avropa Şurasının İnsan hüquqları üzrə komissarı Ermənistandan olan bir qrup azərbaycanlı qaçqınla görüşüb

**Avropa Şurasının İnsan hüquqları üzrə komissarı Dunya Miyatoviç oktyabrın 23-də Qərbi Azərbaycan İcmasını ziyarət edib, icma rəhbərliyi və Ermənistandan olan bir qrup azərbaycanlı qaçqınla görüş keçirib.**



AZƏRTAC xəbər verir ki, icmanın Gənclər Birliyinin sədr müavini, Milli Məclisin deputatı Kamal Cəfərov və digər rəhbər şəxslərlə keçirilən görüş zamanı azərbaycanlıların Ermənistandan zorla qovulması barədə geniş məlumat verilib, bu insan hüquqları pozuntusu ilə bağlı beynəlxalq ictimaiyyətin təcili tədbir görməli olduğu vurğulanıb. İcma nümayəndələri Ermənistanın oradan azərbaycanlıları qovmaqla və onların geri qayıtmasına əngəl törətməklə beynəlxalq hüququ, o cümlədən Avropa Şurasının İnsan hüquqları konvensiyalarını kobud şəkildə pozduğunu diqqətə çatdırıblar. Bu baxımdan Avropa Şurasının Parlament Assambleyasının Ermənistan üzrə həmməruzəçilərinin və İnsan hüquqları komissarının məsələ ilə məşğul olmalarına böyük zərurət yarandığı qeyd edilib, qayıdış hüququ məsələsində etnik əsasda ayrı-seçkiliyin yolverilməz olduğu vurğulanıb.

İcma nümayəndələri bildiriblər ki, Qərbi Azərbaycan İcması məsələnin sülh və ədalətli həlli üçün Ermənistan hökuməti ilə dialoqa hazırdır. İcma xanım Miyatoviçi Ermənistandan qovulmuş azərbaycanlıların öz evlərinə qayıtmasına dəstək verməyə, o cümlədən baş vermiş pozuntularla bağlı qərəzsiz araşdırma aparmağa, Ermənistana tematik səfərlər təşkil etməyə və bu dövlətə təzyiq göstərməyə çağırıb.

Daha sonra Miyatoviç Ermənistandan olan bir qrup azərbaycanlı qaçqın ilə görüş keçirib. Qaçqınlar Ermənistandan zorla çıxarılma ilə bağlı xatirələrini bölüşüb, orada azərbaycanlılara məxsus qəbiristanlıqların, tarixi abidələrin dağıdılması, deportasiya zamanı 200-dən artıq azərbaycanlının öldürülməsi kimi faktları diqqətə çatdırıblar. Vedi rayonundan olan professor Gülçöhrə Məmmədova, Böyük Qarakilsədən olan Əli Eyvazov və digərləri azərbaycanlılara qarşı törədilmiş müsibətlər haqqında ətraflı məlumat veriblər.

Basarkeçər rayonundan olan icmanın Ağsaqqallar Şurasının sədri akademik Əhliman Əmiraslanov bildirib ki, Ermənistandan qovulmuş azərbaycanlılar 35 ildir qayıdışı gözləyirlər. Vətənsiz keçən hər bir günün qaçqınların iztirablarını daha da artırdığını qeyd edən natiq Ermənistandan azərbaycanlıların qovulmasının üstündən xeyli vaxt keçib deyərək, bu məsələni ikinci plana keçirməyin qəbuledilməz olduğunu vurğulayıb.

Xanım Miyatoviç qaçqınların, o cümlədən Ermənistandan qovulmuş azərbaycanlıların qayıdış hüququnun əhəmiyyətini başa düşdüyünü qeyd edərək, bu məsələnin həllinin siyasi iradə tələb etdiyini bildirib. O öz mandatı və regiona səfərinin məqsədləri barədə məlumat verib. Həmçinin qaldırılan məsələlərlə öz səlahiyyətləri çərçivəsində məşğul olacağını qeyd edib.

# Fransa sülhə qarşı çıxır

## Parisin avantüraları İrəvanın başında çatlayacaq

**Fransanın Ermənistana hərbi dəstək verməsi yenilik deyil. Paris işğal dövründə də İrəvanla əməkdaşlıq edib. Bu ölkə müharibə və postmüharibə dövründə Ermənistanın hərbi arsenalının genişləndirilməsinə kömək göstərib. Görünən odur ki, Fransa Cənubi Qafqazda sülh və əmin-amanlığın bərpasında maraqlı deyil. Əksinə, revanşizmə təkan verməklə regionda vəziyyətin pisləşməsi üçün əlindən gələni edir.**



Milli Məclisin deputatı Elman Nəsirov qəzetimizə açıqlamasında qeyd edib ki, Fransanın birmənalı şəkildə Ermənistanı müdafiə etməsi yeni hadisə deyil. Lakin son zamanlar bu prosesi daha radikal aparmağa başlayıb.

"Fransanın xarici işlər naziri Katrin Kolonnanın Ermənistana son səfəri zamanı söylədiyi fikirlər indi reallaşmağa başlayıb. O, Ermənistanın təhlükəsizliyi məsələsinin Fransa üçün strateji əhəmiyyət kəsb etdiyini və bu məntiqlə də Ermənistanla hərbi-texniki əməkdaşlıq sahəsində müqavilə imzalamağı planlaşdırdıqlarını bildirmişdi. Fransanın müdafiə naziri də bildirib ki, yaxın zamanda bu istiqamətdə həlledici addımlar atılacaq və Ermənistanı məhz Fransa silahlandırmağa başlayacaq", - deyə deputat bildirib.

Elman Nəsirov deyib ki, Fransa regionda sülhün və təhlükəsizliyin təmin olunmasında maraqlı olmadığını hər addımında sübut edir: "Fransa Ermənistanı silahlandırmaqdan əl çəkmir. Görünən odur ki, rəsmi Paris qarşıdakı illərdə yeni müharibə ocağının yaradılması üçün çalışır. Beləliklə, Afrikadan hər gün bir az qovulan Fransa kompensasiya olaraq məkan baxımından Cənubi Qafqazı, bir qədər də konkretləşdirsək, Ermənistanı özü üçün seçib. Ona görə də Ermənistandan sui-istifadə edərək regionda öz maraqlarını təmin edir".

Deputatın dediyinə görə, Fransa belə davranışlar sərgiləməklə Cənubi Qafqazı dünyanın ən qaynar nöqtələrindən birinə çevirmək istəyir: "Hazırda ərazilərində müharibə gedən İsrail, Fələstin, Rusiya və Ukraynanın sıralarında Cənubi Qafqazı da görmək istəyir. Ermənistan dövləti, onun ali siyasi rəhbərliyi isə Fransanın bu riyakar məqsədinin reallaşması üçün əlindən gələn hər şeyi edir".

Elman Nəsirov həmçinin bildirib ki, Fransanın bütün bu cəhdləri Azərbaycanın əldə etdiyi uğurlara kölgə salmaq, nailiyyətlərimizin qarşısını almaq potensialında deyil. Çünki bizim işimiz haqq işidir və Azərbaycanın heç bir dövlətin torpağında gözü yoxdur. Biz öz ərazi bütövlüyümüzü təmin etmişik, qoruyuruq və bizə ünvanlanmış istənilən təhlükəni rədd etmək imkanına sahibik. Fransa isə bu son davranışları ilə bir daha öz mahiyyətini ortaya qoyur.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

# Fransa mənfur təcrübəsini Cənubi Qafqazda tətbiq etməyə çalışır

## Parisin müstəmləkə siyasəti beynəlxalq hüquq qarşısında əsas problemlərdən biridir

**"Müasir dövrdə Orta əsrin müstəmləkə təfəkkürünün mövcudluğu və bəşəri dəyərlərin, sülh və təhlükəsizliyin prioritetliyi şəraitində hələ də müstəmləkə siyasətinin davam etdirilməsi XXI əsr sivilizasiyası üçün utanc deməkdir. Ələlxüsus özünü dünyada insan haqlarının və beynəlxalq hüququn müdafiəçisi kimi qələmə verən Fransanın bu prosesdə xüsusi amansızlıqla davranması, müstəmləkəçiliyi yeni mərhələyə daşıması müasir beynəlxalq hüquq qarşısında əsas problemlərdən biridir".**





Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib. O bildirib ki, Fransanın qlobal subyekt kimi təsir gücü, BMT Təhlükəsizlik Şurasının daimi üzvü və nüvə dövləti olması, qlobal media infrastrukturu üzərində təsiri kimi amillər son dövrlərə qədər Parisi planetar miqyaslı tənqidlərdən sığortalayıb. Bu situasiya isə Fransada cinayətkarcasına özgüvənə səbəb olub və bütün bunlar ölkənin neokolonizasiya prosesinin daha şiddətli formaya transformasiyasına gətirib çıxarıb.

Deputat vurğulayıb ki, Asiya ölkələrinə, xüsusən islam dünyasına münasibətdə insan haqlarının müdafiəsi və təmini ilə bağlı məsələləri təzyiq alətinə çevirən Fransa cəzasızlıq mühitindən yararlanaraq özünün müstəmləkələrində sözün əsl mənasında hüquqsuzluq mühiti formalaşdırıb: "Eyni zamanda dəyişən reallıqlar fonunda Fransa özünün təcavüzkar niyyətlərinin dairəsini genişləndirməkdə davam edib, xüsusən Cənubi Qafqazda mövqeyini möhkəmləndirmək üçün hüquqa zidd fəaliyyətlər seriyasına start verib. Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda Bakıda nazirlər görüşündə cənab İlham Əliyevin də bəyan etdiyi kimi, təəssüf ki, Fransa Azərbaycanın Qarabağ bölgəsində erməni separatizmini dəstəkləyərək, geosiyasi rəqabət, xarici hərbi mövcudluq və "Orientalizm" müstəmləkəçilik siyasəti ilə Cənubi Qafqaz regionunda da eyni mənfur təcrübəni tətbiq etməyə çalışır".

B.Məhərrəmov qeyd edib ki, Ermənistanın prosesdə alət kimi davranmasına baxmayaraq, Fransanın müstəmləkəçilik ideyaları Qafqazda arzuladığı və planlaşdırdığı istiqamətdə davam etməyib. Xüsusən Azərbaycanın Vətən müharibəsində Ermənistanın timsalında həm də, əslində, Fransanı məğlub etməsi Paris üçün əsl fiasko oldu. Vətən müharibəsi dövründə və sonrakı mərhələdə Parisin ardıcıl, lakin məğlubiyyətlə nəticələnən hücumlarının ardınca Qoşulmama Hərəkatının Sədri cənab İlham Əliyevin cavab həmləsi Fransa müstəmləkəçilik tarixində çöküş dövrünün başlanmasına səbəb oldu.

2022-ci il noyabrın 1-də Əlcəzairdə Ərəb Dövlətləri Liqasının 31-ci Zirvə toplantısında iştirak edən Prezident İlham Əliyevin qlobal miqyasda ilk dəfə Fransanın əsl simasını ifşa etdiyini və Əlcəzair xalqına qarşı törətdiyi, 1,5 milyon əlcəzairlinin ölümü ilə nəticələnmiş zorakılığın, kütləvi qəddarlığın unudulmaması üçün ərəb-islam dünyasına səsləndiyini xatırladan deputat bildirib ki, dövlət başçısı bu faciəni unutmayaraq, gələcəkdə belə faciələrin qarşısının alınması üçün əlimizdən gələni etməli olduğumuzu deyib. "Bu il martın 2-də Bakıda Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşündə cənab İlham Əliyev prosesləri bir az da irəli apararaq Fransanı Afrika, Cənub-Şərqi Asiya və digər ərazilərdə Qoşulmama Hərəkatının üzvü olan ölkələrə qarşı müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə, eləcə də soyqırımı aktlarına görə üzr istəməyə və məsuliyyətini etiraf etməyə çağırdı. Bu, Fransanın müstəmləkəçilik siyasətinə qarşı mübarizədə yeni mərhələ idi və proses özünün daha dolğun istiqamətdə nəticələrini çox gözlətmədi. İyulun 6-da Bakıda Qoşulmama Hərəkatının Əlaqələndirmə Ofisinin Nazirlər Toplantısı çərçivəsində Fransanın istismar etdiyi müstəmləkələrin nümayəndələri ədalət və azadlıq uğrunda apardıqları mübarizədə həmrəylik şəbəkələrini strukturlaşdırmaq üçün Fransa müstəmləkəçiliyinə qarşı Bakı Təşəbbüs Qrupunun yaradılması barədə razılığa gəldi və yekun bəyannamə qəbul edildi", - deyə o əlavə edib.

Deputatın sözlərinə görə, sonrakı dövrdə Bakı Təşəbbüs Qrupu Fransa müstəmləkəçiliyi ilə mübarizədə nüfuzlu platformaya çevrilməyə və məhz Azərbaycan Prezidentinin dəstəyi ilə uğurlu fəaliyyət nümunəsi ortaya qoymağa başlayıb. Bu il sentyabrın 22-də ABŞ-nin Nyu York şəhərində yerləşən BMT-nin mənzil-qərargahında "Dekolonizasiya: Sakit İnqilab" adlı konfrans, ardınca oktyabrın əvvəllərində BMT Baş Assambleyasının Siyasi və dekolonizasiya məsələləri üzrə 4-cü komitəsində Bakı Təşəbbüs Qrupunun məruzəsinin dinlənilməsi Fransanın müstəmləkə siyasətinin dünya birliyinə çatdırılması baxımından önəmli hadisələr oldu.

Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə Bakıda 14 ölkənin, eləcə də Fransanın müstəmləkə altında saxladığı dənizaşırı ərazilərinin, həmçinin Korsika təmsilçilərinin iştirakı ilə "Neokolonializm: İnsan hüquqlarının pozulması və ədalətsizlik" adlı beynəlxalq konfransın keçirilməsi təsisatın artıq müstəqil qlobal subyekt kimi özünü doğrultduğunu göstərməklə bərabər, həm də qlobal miqyasda şər yuvasına çevrilmiş Fransa ilə onun başa düşdüyü dildə danışılmağa başlandığını göstərir.

Keçmiş müstəmləkələrində dövlətlərin daxili işlərinə kobud şəkildə müdaxilələr edən, habelə hazırkı koloniyalarında insan hüquqlarını pozan Fransanın ifşa edilməsi ayrı-ayrı bölgələrdə, o cümlədən Cənubi Qafqazda Parisin əsl simasını göstərmək üçün çox önəmlidir. Hadisələrin inkişafı isə Azərbaycanın bu prosesdə fəallığının, Fransanın müstəmləkəçilik və yeni müstəmləkəçilik siyasətinə qarşı mübarizədə prinsipial mövqeyinin nə qədər əsaslı olduğunu təsdiq edir. Bakı Təşəbbüs Qrupunun üzvləri etiraf edirlər ki, məhz cənab İlham Əliyevin qətiyyəti sayəsində, BMT Baş Assambleyası tərəfindən 75/123 nömrəli "Müstəmləkəçiliyin ləğvi üzrə beynəlxalq dördüncü onillik" adlı qətnamənin qəbulunun yaratdığı imkanlardan istifadə edərək, nəhayət, haqlarına qovuşmaq imkanı əldə ediblər. Bu, eyni zamanda Qoşulmama Hərəkatı tarixində xüsusi səhifə sayılmalıdır, çünki Hərəkat fəaliyyəti tarixinin heç bir dövründə təsis məqsədlərinə doğru bu qədər effektiv nəticələrə nail olmayıb.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Ermənistanı silahlandıran Fransa sülh danışıqlarında iştirak edə bilməz

**Azərbaycanın bu il sentyabrda Qarabağda lokal xarakterli antiterror tədbirləri keçirməsi və Prezident İlham Əliyevin Xankəndidə dövlət bayrağımızı ucaltması ilə regionda siyası vəziyyət dəyişdi. Azərbaycanın bu qətiyyətli addımından sonra bəzi ölkələr, bu dövlətlərin planlarını həyata keçirməkdə "vasitəçilik" missiyasını yerinə yetirən beynəlxalq qurumlar asılı olduqları dövlətlərin, xüsusilə Fransanın Cənubi Qafqazda maraqlarını təmin etmək üçün ölkəmizə qarşı total "hücuma" keçiblər.**

Qarabağ probleminin müəlliflərindən biri olan, yeni tariximizin 35 ilini əhatə edən bir müddət ərzində münaqişənin həllində vasitəçilik missiyası ilə məşğul olan Fransa illərdir onun həllinə maneçilik törətməklə yanaşı, Ermənistanı silahlandırmaqla, separatçılara hərbi-siyasi dəstək verməklə məşğul olub. Əgər 2020-ci ilə kimi Fransa həyata keçirdiyi ikiüzlü siyasəti bir qədər gizli etməyə çalışırdısa, 44 günlük müharibədən sonra bu dövlət öz iç üzünü açıb göstərərək ölkəmizə qarşı çirkin kampaniyalara rəhbərlik etdiyini ortaya qoydu. Əgər əvvəlki illərdə fransalı hərbi mütəxəssislər vaxtaşırı Ermənistan ordusuna təlimlər keçir, istehkamlar tikməyə yardım edirdilərsə, silah-sursat təminatını gizli həyata keçirirdilərsə, bu gün həmin dövlət Ermənistanın "təhlükəsizliyi naminə" bunu tam açıq surətdə edir.

Mövcud reallıqları qəbul edə bilməyən, Cənubi Qafqazdakı çoxillik ikiüzlü siyasəti iflasa uğrayıb gülünc duruma düşən Fransa indi ölkəmizə qarşı səlib yürüşünə keçib. Ermənistana yalnız siyasi dəstək verməklə kifayətlənməyən Paris təcavüzkar ölkəni silahlandırmağa da başlayıb. Bütün qüvvəsi ilə sülh danışıqları prosesinə əngəl olan Emmanuel Makron Aİ-nin müşahidə missiyası adı ilə Parisin jandarm qüvvələrində xidmət etmiş hərbi qulluqçuları kəşfiyyat xarakterli məlumatlar toplamaq məqsədi ilə Ermənistan-Azərbaycan sərhədinə yerləşdirib. Bu azmış kimi, Ermənistanı Cənubi Qafqazda forpostuna çevirməkdə israrlı olan Fransa bu istiqamətdə fəaliyyətini davam etdirərək təlim adı altında ilkin olaraq 56 fransız hərbçini İrəvana göndərib. Məsələyə münasibət bildirən Fransanın Ermənistandakı səfiri Oliv-




ye Dekotinyi fransız hərbçilərinin Ermənistana gəlişinin "HOPE FSX2023" təlimlərində iştirak etmək olduğunu bildirib. "Dash" tipli iki təyyarə, 8 ton avadanlıqla Ermənistana göndərilən fransız hərbçilərinin "mülki təhlükəsizlik" təlimlərində iştirak etməsi üçün gəlməsi qeyd edilsə də, bunda məqsəd başqadır. Belə ki, bu, indiyədək Ermənistanı gizlin silahlandıran Parisin rəsmi Yerevanla hərbi əməkdaşlığını genişləndirməsindən xəbər verir. Məsələ burasındadır ki, Paris bu iyrənc əməllərinə haqq qazandırmaq üçün Ermənistanın "təhlükəsizliyi" amilindən istifadə etməyə çalışır...

Birincisi, indiyə kimi özünü "böyük Ermənistan" yaratmaq kimi sərsəm ideyaya həsr edib region dövlətlərinə təhlükə yaradan, ərazi iddiası irəli sürən Ermənistan olub. İkincisi, Azərbaycan öz ərazilərini işğaldan azad etdikdən sonra Ermənistana sülh təklif edən dövlətdir. Bu gün də sülh danışıqlarının əsas mövzusu sərhədlərin delimitasiya və demarkasiya olunmasıdır. Məntiqlə, əgər Azərbaycanın Ermənistana ərazi iddiası varsa, niyə sərhədlərin delimitasiya və demarkasiya olunmasını israrla tələb edir?

Heç kimə sirr deyil ki, Ermənistanın baş naziri tapşırıqları Fransadan və regonda marağı olan Qərb dövlətlərinin fikirlərinin ifadəçisi olan Avropa Parlamentindən və Aİ-dən alır. Bu gün Ermənistanı silahlandıran, hər vasitə ilə danışıqlar prosesinə özünü pərçim etməyə çalışan Fransanın Ermənistanın "hərbi qüdrətini" artırmaq üçün etdiyi yardımın kökündə bir məsələ dayanır. O da Cənubi Qafqaz siyasəti ifşa olunan Fransanın yenidən danışıqlar prosesində iştirak edib özünə mövqe qazanmasıdır.

Sentyabrın 19-20-də keçirilən lokal xarakterli antiterror tədbirlərindən sonra bütün təşəbbüs yalnız rəsmi Bakının əlində cəmləşib. İndi tərəfləri ən çox düşündürən sual budur: sülh protokolu kimin vasitəçiliyi ilə imzalanacaq? Təbii ki, bu həlledici məqamda danışıqlar prosesində kimin söz sahibi ola biləcəyini məhz Azərbaycanın siyasi iradəsi müəyyən edir. Problemin yekun mərhələsi indiyə kimi regional proseslərdə fəal iştirak edən ABŞ və Qərbi, xüsusilə də Avropa Birliyini daha fəal hərəkət etməyə məcbur edir. Bir tərəfdən də Ermənistanın dar macalda "sıxışdırıldığı", daha doğrusu, Qərb dövlətlərinin diktəsi ilə Rusiyadan uzaqlaşmaq cəhdləri bu ölkəni yeni problemlə üz-üzə qoyub.

Amma sülh danışıqları prosesində vasitəçiliyini təklif edən dövlətlərin və beynəlxalq qurumların məsələyə Azərbaycanın siyasi iradəsi çərçivəsindən baxmaqdan başqa çərələri yoxdur.

Bu arada region dövlətlərindən İran da danışıqlar prosesinə öz vasitəçiliyini təklif edib. Sülh protokolunun kimin vasitəçiliyi ilə və harada imzalanacağı konkret olaraq məlum olmasa da, birmənalı olaraq deyə bilərik ki, bu prosesdə indiyə kimi Ermənistanı silahlandırıb iki qonşu dövlət arasında düşmənçilik yaradan, günahsız insanların ölümünə, zülm, zillət çəkməsinə səbəb olan Fransa olmayacaq!

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*





# Düşməni lərzəyə salan təlim

**Türkiyə Respublikasının yaradılmasının 100-cü ildönümünə həsr olunmuş "Mustafa Kamal Atatürk - 2023" taktiki təlimi iki qardaş ölkənin bütün sahələrdə olduğu kimi, hərbi sferada da tərəfdaşlığının uğurla davam etdiyini göstərir.**

Dünəndən başlayaraq işğaldan azad edilmiş ərazilərimiz də daxil olmaqla bir neçə istiqamətdə keçirilən təlimlərə Azərbaycan və Türkiyənin Quru qoşunları və Hərbi Hava Qüvvələrinin heyət və vasitələri cəlb olunub.

Mövzu ilə bağlı qəzetimizə danışan hərbi ekspert Şair Ramaldanov deyib ki, Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı gündən-günə inkişaf edir. Xüsusilə Şuşa Bəyannaməsi imzalanandan sonra bu proses daha intensiv xarakter alıb. Artıq istər Türkiyədə, istərsə də Azərbaycanda keçirilən hərbi təlimləri hər iki qardaş ölkənin iştirakçıları olmadan təsəvvür etmək mümkün deyil. Bu, iki ölkə arasında Silahlı Qüvvələrin birgə fəaliyyət göstərməsi üçün böyük imkanlar yaradır. Bütün bu işlərin nəticəsidir ki, Azərbaycan hər zaman Türkiyənin, eynilə də qardaş ölkə bizim maraqlarımızı təmin edə bilər.



Ekspert qeyd edib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin hər zaman ordu qarşısında qoyduğu vəzifə və tapşırıqlardan biri də Türkiyə modelinə keçmək olub. Bununla bağlı çox böyük işlər görülüb və start verilən hərbi təlimlər də bu planların davamıdır.

"Bu təlimlərdə diversantlara və terrorçulara qarşı fəaliyyət də nəzərdə tutulub. Torpaqlarımız işğaldan azad edilsə də, separatçılar tərk-silah olunsa da, bəzi quldur və terrorçu qruplarının meşələrə və dağlara çəkilərək hansısa terror fəaliyyətini həyata keçirə biləcəkləri ehtimalı istisna edilmir. Ona görə də ehtiyatlı olmaq və gələcəkdə baş verə biləcək terror hadisələrinin qarşısını almaq üçün belə hərbi taktiki təlimlərə ehtiyac var. İki qardaş ölkənin hərbçilərinin bu istiqamətdə müştərək hərəkəti hədəflərə daha tez çatmağımızı təmin edə bilər", - deyə müsahibimiz qeyd edib.

Şair Ramaldanovun sözlərinə görə, "Mustafa Kamal Atatürk - 2023" birgə taktiki təlimi Azərbaycan və Türkiyənin hərbi heyətinin döyüş qabiliyyətini artırması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu təlimlər həm sınaq xarakteri daşıyır, həm də ordularımızın peşəkarlığının artırılmasına xidmət edir. Təcrübə mübadiləsi nəticəsində iki qardaş ölkənin öz təhlükəsizliklərini qoruması müdafiə qabiliyyətlərinin artması nəticəsində daha da asanlaşır.

Ekspert onu da vurğulayıb ki, oktyabrın 18-də başlayan təlimlərin taktiki döyüş atışlı mərhələsi kifayət qədər uğurludur.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

# Kolonializm tarixinin qanlı cinayətlərinin çoxunu Fransa törədib

**Dünyanın müxtəlif bölgələrində müstəmləkəçilik problemi ilə üzləşmiş bir sıra dövlətlərin vətəndaşları azadlıqları, ədalətin bərpası uğrunda mübarizələrini hələ də davam etdirirlər.**

Məlum bir həqiqət də var ki, nə qədər beynəlxalq təşkilatlar və bütövlükdə dünya ictimaiyyəti onların harayını eşitməyəcəkcə, səslərinə səs verməyəcəksə, insan hüquqlarının pozulması faktlarına laqeyd yanaşılacaqsa, ədalətsizlər, işğalçılar arxayınlaşacaq və cinayət əməllərindən əl çəkməyəcəklər. Odur ki, dünyanın ayrı-ayrı yerlərində yerli əhalini müstəmləkə əsarətində saxlayan, onların ölkələrində qarşıdurmalara rəvac verən, qırğınlar, soyqırımları törədən təcavüzkar dövlətlər məsuliyyətə cəlb olunmalıdırlar. Bu ölkələrin ilk sıralarında Fransa dayanmalıdır. Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə oktyabrın 20-də Bakıda keçirilən "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda beynəlxalq konfransın iştirakçılarına ünvanladığı müraciətində Prezident İlham Əliyevin bəyan etdiyi kimi, bəşəriyyətin kolonializm tarixinin qanlı cinayətlərinin çoxu məhz Fransa tərəfindən törədilmişdir: "Afrika, Cənub-Şərqi Asiya, Sakit Okean, Latın Amerikasında onlarca ölkəni işğal edən, sərvətlərini talan edən, xalqlarını uzun illər əsarətdə saxlayan Fransa həmin ərazilərdə hərbi və bəşəriyyət əleyhinə çoxsaylı cinayətlər törətmişdir, fransız silahlı qüvvələri etnik və dini mənsubiyyətinə görə yüz minlərlə dinc sakini soyqırımına məruz qoymuşdur".

Apardığı işğalçı siyasəti nəticəsində Fransa əsrlərdir milyonlarla günahsız insanın həyatını zindana çevirib, onları təhlükəsizlik şəraitində, sağlam mühitdə, azad yaşamaq hüququndan məhrum edib. "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda beynəlxalq konfransda iştirak edən bir sıra dövlətlərin təmsilçiləri bu müstəmləkəçi dövlətin necə böyük, dəhşətli cinayətlər həyata keçirdiyini dilə gətirdilər. Qvadelupanın Azadlıq Uğrunda Xalq Birliyinin üzvü Jan-Jakob Bisep çıxışında qeyd etdi ki, ölkəsində müstəqillik tərəfdaşı olan qruplar Fransa tərəfindən öldürülür və onların sayı əhaliyə açıqlanmır. Jan-Jakob Bisep Qvadelupa əhalisinin dörd əsrdir Fransanın əsarəti altında yaşadığını diqqətə çatdırdı: "Ölkəmdə yüzlərlə insan fransız polisləri tərəfindən həbs edilir, bir çoxu amansızlıqla qətlə yetirilir. Qvadelupanın təbii sərvətləri Fransa tərəfindən mənimsənilir. Ölkəmdə yaşayan vətəndaşların sosial vəziyyəti heç də yaxşı deyil. Biz hakimiyyətdə olan insanlardan lazımi tədbirləri görmələrini tələb edirik. Böyük dövlətlər Karib hövzəsində insan hüquqlarını əzərək öz güclərini nümayiş etdirirlər. Karibdə sülh yenidən bərqərar olunmalıdır".

Fransız Qvianasının Sosial Azadlığı və Dekolonizasiya naminə Hərəkatın siyasi bürosunun üzvü Moris Pindard, Fransız Polineziyası Assambleyasının üzvü Heinui Robert le Caill, Kanak Birliyinin təmsilçisi Davi Nikolas Bolo, Korsika adasının Poggio-di-Venaco şəhərinin meri Jan-Mark Rodriguez və başqaları Fransanın müstəmləkəsi altında olan ölkələrindəki ağır vəziyyətdən bəhs etdilər. Onların Fransanın müstəmləkəçilik siyasəti nəticəsində maliyyə və iqtisadi cəhətdən asılı vəziyyətə düşmüş ökələrində əhali yoxsulluq içərisində yaşayır, çünki yeraltı və yerüstü sərvətləri işğalçı Fransa tərəfindən talan edilir, daşınıb aparılır. Xalqları öz doğma vətənlərində ana dillərində belə təhsil almaqdan məhrum edilib. Beynəlxalq konfransda çıxış edən Martinikanın Azadlıq Partiyasının nümayəndəsi Lyuk Frensis Kerol ölkəsinin təbii sərvətlərinin talandığını və 90 faizinin Fransaya və digər ölkələrə aparıldığını bildirdi: "Kənd təsərrüfatı siyasəti elə qurulub ki, biz sərbəst hərəkət edə bilməyək. Müstəmləkəçilik mədəniyyət sahəsinə də təsir edir. Biz istəyirik ki, dilimiz fransız dili ilə eyni səviyyədə rəsmi dil olsun. Onlar bundan imtina edirlər. Biz eyni zamanda istəyirik ki, Fransa ədalət qarşısında cavab versin. Biz müstəqillik əldə etmək istəyirik. Afrikanın azad olunması bütün dünyanın diqqətində olmalıdır".

Fransanın müstəmləkəçilik siyasətinin ən ağır, qaniçən siyasət olduğunu deyən Müstəqil Martinika naminə ekoloqlar və demokratlar hərəkatının sədr müavini Klaudette Duhamel qeyd etdi ki, onlar bizim ruhumuzu, adət-ənənələrimizi əlimizdən alıblar: "Onları maraqlandıran yeganə məsələ çoxlu gəlir əldə etməkdir. Onlara görə, qaradərililərin əşyadan fərqi yoxdur, söz haqqımız yoxdur".

Dövlətimizin başçısı İlham Əliyevin "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda beynəlxalq konfransın iştirakçılarına ünvanladığı müraciətində bildirdiyi kimi, qanlı cinayətlərlə zəngin kolonializm tarixinə görə utanmalı olan Fransa törətdiyi vəhşiliklərə görə üzr istəmək əvəzinə, digər ölkələrdə uydurma etnik təmizləmələrdən danışır: "Bu ölkə BMT Təhlükəsizlik Şurasının daimi üzvü statusundan öz qərəzli, qeyri-obyektiv siyasətini yürütmək üçün sui-istifadə edir, müxtəlif regionlarda geosiyasi intriqalarla məşğul olur".

Azərbaycanın ərazilərini işğaldan azad edərək suverenliyinə nail olması ilə Fransa barışa bilmir. Bu gün də ölkəmizə qarşı Ermənistanın həyata keçirdiyi siyasəti açıq şəkildə dəstəkləməsilə, yalnız müstəmləkəçi dövlət olmadığını, həm də işğalçıların, terroristlərin yanında yer aldığını göstərir. Ancaq Ermənistana dəstək verməklə, silahlandırmaqla Fransanın regionumuzu bir daha münaqişə ocağına çevirmək niyyəti baş tutmayacaq.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# MEDİA saxta xəbər əsaslı material barədə açıqlama yayıb

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi (MEDİA) Avstriyanın "Der Standard" qəzetinin 21 oktyabr nömrəsində dərc olunmuş saxta xəbər (feyk nyus) əsaslı material barədə açıqlama yayıb.**

MEDİA-dan AZƏRTAC-a daxil olan açıqlamada bildirilib: "Avstriyanın "Der Standard" qəzeti 2023-cü il 21 oktyabr tarixli nömrəsində "Dağlıq Qarabağda etnik təmizləmə təhlükəsi" başlıqlı reportaj yayımlanıb. Materialın müəllifi, telejurnalist Jo Angerer heç bir araşdırma aparmadan müxtəlif detalları fakt kimi təqdim edərək bu il sentyabrın 19-da Azərbaycanın öz ərazisində beynəlxalq hüququn norma və prinsiplərini əsas götürərək apardığı lokal antiterror tədbirləri barədə yanlış təəssürat yaratmışdır. Jurnalist auditoriyanı yönləndirmək məqsədilə xəbərin miqyası və məzmunundan daha çox onun şərh hissəsini manipulyasiya predmetinə çevirmiş, qarşı tərəfin rəyini nəzərə almayaraq jurnalistikanın balans prinsipini pozmuş, bölgədəki mövcud vəziyyəti obyektiv ifadə etməyən birtərəfli material hazırlamışdır.

Azərbaycan Respublikasının müvafiq rəsmi hakimiyyət orqanları hansı media subyektində çalışmasından və hansı ölkəni təmsil etməsindən asılı olmayaraq, bütün jurnalistlərin informasiya əldə etmək hüququna hörmətlə yanaşır və jurnalist sorğularının operativ cavablandırılmasına hər zaman hazırdır. Vurğulamaq istərdik ki, nə "Der Standard" qəzeti, nə də Jo Angerer lokal antiterror tədbiri ilə bağlı Azərbaycan Respublikasının müvafiq dövlət orqanlarına heç bir müraciət etməmişdir.

Qeyd edək ki, adıçəkilən qəzetdə verilmiş reportajda lokal antiterror tədbiri zamanı mülki əhalinin itkilərinin olması barədə uydurma versiyanın irəli sürülməsi saxta xəbərdir ("feyk nyus"). Belə ki, reportajda dəfələrlə Azərbaycan Respublikasının dəvəti ilə bölgədə səfərdə olaraq monitorinqlər aparmış Birləşmiş Millətlər Təşkilatının (BMT) missiyasının lokal antiterror tədbiri zamanı mülki əhaliyə heç bir ziyan dəymədiyi və bununla bağlı hər hansı fakt qeydə alınmadığı barədə rəyi belə nəzərə alınmamışdır. Xatırlatmaq istərdik ki, BMT-nin, Beynəlxalq Qırmızı Xaç Komitəsinin və digər beynəlxalq təşkilatların əməkdaşları erməniəsilli sakinlərin Azərbaycan Respublikasının hərbi qüvvələri tərəfindən qovulması və onlara qarşı zor tətbiq edilməsi ilə bağlı heç bir hal təsdiq etməmişdir. Habelə erməniəsilli şəxslər bölgəyə gəlmiş beynəlxalq media subyektlərinə, eyni zamanda Ermənistanın aparıcı media qurumlarına verdikləri çoxsaylı açıqlamalarında mülki əhaliyə heç bir ziyan dəyməməsi faktını dəfələrlə vurğulamışlar.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi olaraq "Der Standard" qəzetində şəxsi, subyektiv siyasi mülahizələr əsas götürülərək reallıqları təhrif edən, media etikası və jurnalistin peşəkarlığı prinsipləri ilə bir araya sığmayan materiala yer verilməsinin təəssüf hissi doğurduğunu bildirir, eyni zamanda sözügedən qəzeti Azərbaycan Respublikasının rəsmi mövqeyini nəzərə alaraq regionumuzda mövcud siyasi reallıqlar barədə material hazırlamağa çağırırıq".

# ZƏFƏR gündəliyi

## 24 oktyabr 2020-ci il

**Oktyabrın 24-də** cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Hadrut və Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edir. Düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutur.



Azərbaycan Ordusunun bölmələri əməliyyat planına uyğun cəbhənin müəyyən istiqamətlərində döyüş fəaliyyətlərini davam etdirirlər.

Cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində mütəşəkkil müqavimət göstərə bilməyən Ermənistan silahlı qüvvələri bölmələrinə atəşlə ciddi ziyan vurulur. Düşmənin silah və sursat, yanacaq ehtiyatları anbarları sıradan çıxarılır. Bəzi istiqamətlərdə düşmən nizamsız qaydada mövqeləri tərk edərək geri çəkilir. Əhəmiyyətli kommunikasiya xətləri nəzarətə götürülür, düşmənin bir neçə dayaq məntəqəsi dağıdılır və vacib yüksəkliklər azad edilir.

Bütün cəbhəboyu döyüşlər davam edir. Qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

❖ ❖ ❖

Tərtər və Bərdə rayonlarının ərazilərindəki yaşayış məntəqələrimiz düşmən tərəfindən atəşə tutulur. Xeyli sayda yaşayış evinə ciddi ziyan dəyir.

Düşmən Goranboy və Naftalan istiqamətindəki ərazilərimizi atəşə tutur.

❖ ❖ ❖



Gündüz saatlarında cəbhənin Qubadlı istiqamətində Ermənistan hərbi hava qüvvələrinə məxsus döyüş təyyarəsi Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edilir.

❖ ❖ ❖

Saat 13:00-dan 15:00-dək Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) döyüş aviasiyası cəbhənin Ağdərə və Ağdam istiqamətlərində Ermənistan silahlı qüvvələrinin 3 tankını, 2 sığınacağını və bölüyün 4 dayaq məntəqəsini dəqiq aviasiya zərbələri ilə məhv edir.

Azərbaycan HHQ düşmənin hərbi infrastrukturuna hava zərbələri endirməyə davam edir.

❖ ❖ ❖

Prezident İlham Əliyev Fransanın "Figaro" qəzetinə müsahibə verir. Jurnalistin ilk sualından məqsədi bəlli olur.



Fransalı müxbirin "Nəyə görə siz sentyabrın 27-də Dağlıq Qarabağa qarşı hücuma keçmisiniz və bu hərbi hücumun siyasi məqsədləri nədir?" sualına cavabında Prezident dedi ki, biz Dağlıq Qarabağa qarşı hərbi hücuma keçməmişik, Ermənistan Azərbaycana qarşı hərbi hücuma keçib. Bu hərbi hücumun ilk saatlarında bizim mülki şəxslər və hərbi qulluqçularımız arasında qurbanlarımız olub. Prezident üç ay müddətində Ermənistan tərəfindən Azərbaycana qarşı üç hərbi təxribat törədildiyini söyləyərək işğalçının əsl məqsədini açıqladı və qeyd etdi ki, Azərbaycan onlara yalnız adekvat cavab verib: "Bunun nəticəsində biz Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin bir hissəsini azad etdik və azad etməyə davam edirik".

Müharibənin hansı şərtlərlə dayandırılmasına gəlincə isə İlham Əliyev dedi: "Biz bu gün dayanmağa hazırıq. Mən bunu oktyabrın 10-dan - Moskvada hər iki tərəf atəşkəslə bağlı razılığa gələndən bəri deyirdim. Biz danışıqlar masasına keçmək istəyirik. Lakin əfsuslar olsun ki, Ermənistan atəşkəsi kobud şəkildə pozdu və Gəncəyə hücum etdi. Oktyabrın 17-də onlar növbəti atəşkəs qüvvəyə minəndən 2 dəqiqə sonra onu pozdular. Ona görə də əgər onlar bu gün dayansalar, biz dayanarıq və qalan işlər diplomatlar tərəfindən görülər. Əgər onlar dayanmasalar, biz işğal edilmiş bütün əraziləri azad etmək üçün sona qədər gedəcəyik".

❖ ❖ ❖

Azərbaycan Ordusunun bölmələrinin Laçın və Qubadlı istiqamətlərində həyata keçirdiyi əməliyyatların qarşısını almaq məqsədilə Ermənistan növbəti təxribata əl atır.



Belə ki, hazırda Ermənistan Gorus və Qafan rayonları ərazisində, dövlət sərhədinə yaxın yerdə döyüş mövqeyi tutan düşmənin raket və artilleriya qurğuları Laçın və Qubadlı ərazilərini gizli atəşə tutur.

Qarşı tərəfin məqsədi Azərbaycan Ordusunu Ermənistan ərazisinə atəş açmağa təhrik etməkdir.

❖ ❖ ❖

Saat 15:25 radələrində Ağdərə rayonu istiqamətində uçuş keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus pilotsuz uçuş aparatı Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən məhv edilir.

Artilleriya bölmələrimiz düşmənə sarsıdıcı zərbələr endirməyə davam edir.

Azərbaycan hərbi komandanlığı döyüşlər gedən istiqamətlərdəki yaşayış məntəqələrində məskunlaşan dinc əhaliyə bir daha müraciət edərək onların xəsarət almaması üçün hərbi obyekt və infrastrukturdan uzaq durmasını tövsiyə edir.

Eyni zamanda Azərbaycanın hərbi komandanlığı Ermənistanın hərbi-siyasi rəhbərliyi tərəfindən aldadılaraq ölkəmizin işğal olunmuş ərazilərinə gətirilən əsgər və könüllülərə də müraciət edərək silahı yerə qoymağı və təslim olmağı təklif edir.

❖ ❖ ❖

Günorta saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Sünik-Zəngilan yolu istiqamətindən bölmələrimizə hücum etməyə cəhd edir.

Bölmələrimizin sərt müqaviməti ilə rastlaşan düşmən geri çəkilməyə məcbur edilir. Düşmən qüvvələrindən əsir götürülənlər var.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*



# "Yaşıl enerji"nin Avropaya ixracı istiqamətində işlər davam etdirilir



**Azərbaycan Respublikası Prezidentinin "Bərpa olunan enerji mənbələrindən istifadə sahəsində pilot layihələrin həyata keçirilməsi tədbirləri haqqında" 5 dekabr 2019-cu il tarixli sərəncamı ilə yaradılmış komissiyanın növbəti iclası keçirilib. Energetika naziri Pərviz Şahbazovun sədrliyi ilə keçirilən iclasda cari dövr ərzində görülmüş işlər barədə hesabatlar dinlənilib.**

AZƏRTAC xəbər verir ki, nazir Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə bərpaolunan enerjinin inkişafı sahəsində əldə olunan nailiyyətlər və perspektivlərdən danışıb. O bildirib ki, yaxın günlərdə regionun ən böyük günəş-elektrik stansiyası - "Qaradağ" GES istismara veriləcək. Həmçinin qeyd olunub ki, işğaldan azad edilmiş ərazilərin "yaşıl enerji zonası" kimi inkişafı üzrə işlər davam etdirilir, müvafiq sahədə müntəzəm monitorinqlər aparılır. Naxçıvanın da ölkə başçısı tərəfindən "yaşıl enerji zonası" elan olunduğu qeyd edilərək, muxtar respublikada bərpaolunan enerji mənbələrinin xüsusi çəkisinin artırılmasını da özündə ehtiva edən 2023-2027-ci illər üçün sosial-iqtisadi inkişafa dair dövlət proqramının icrasından danışılıb. Eyni zamanda "yaşıl enerji"nin Avropaya ixracı istiqamətində işlərin davam etdirildiyi bildirilib.

İclasda bərpaolunan enerji layihələri üçün dənizdə ərazilərin ayrılması, imzalanması nəzərdə tutulan sənədlər, yeni güclərin şəbəkəyə inteqrasiyası və digər məsələlər müzakirə olunub.

Energetika, Fövqəladə Hallar, Ekologiya və Təbii Sərvətlər, Müdafiə, İqtisadiyyat, Maliyyə, Ədliyyə, Kənd Təsərrüfatı, Rəqəmsal İnkişaf və Nəqliyyat nazirliklərinin, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, "Azərenerji" ASC, "Azərişıq" ASC, Mərkəzi Bank, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Minatəmizləmə Agentliyinin nümayəndələrinin iştirak etdiyi iclas Azərbaycanda bərpaolunan enerji layihələrinin həyata keçirilməsi ilə bağlı növbəti addımların və vəzifələrin müzakirəsi ilə yekunlaşıb.

# Hasilat fasiləsiz davam edir

## Bu, ixracın da ahəngdarlığına imkan verir

**Ölkəmizin neft-qaz yataqlarından hasilat ahəngdar davam edir. Bu ilin yanvar-sentyabr ayları üzrə operativ məlumatlara əsasən, Azərbaycanda neft-kondensat hasilatının həcmi 22,7 milyon ton olub.**

13,5 milyon ton neft "Azəri-Çıraq-Günəşli" (AÇG) blokundan, 3,3 milyon ton kondensat "Şahdəniz"dən və 140 min ton kondensat təzəcə hasilata başlamış "Abşeron" yatağından alınıb. 5,8 milyon ton neft və kondensat isə SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ) tərəfindən hasil edilib.

Energetika Nazirliyinin bu məlumatında həmçinin bildirilir ki, "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları istismara veriləndən cari ilin oktyabr ayınadək 623,9 milyon ton neft (kondensatla birlikdə) əldə olunub. "Azəri-Çıraq-Günəşli"dən 580,4 milyon ton neft, "Şahdəniz"dən isə 43,5 milyon tona yaxın kondensat çıxarılıb. Bundan 622 milyon tonu ixraca yönəldilib.

Cari ilin doqquz ayında xaricə 19 milyon ton neft (kondensatla birlikdə) ixrac olunub. Bunun 16,7 milyon tonu konsorsiumun, 2,3 milyon tonu isə SOCAR-ın payına düşür.

Xatırladaq ki, AÇG nefti və "Şahdəniz"in kondensatı Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə ixrac edilir. Bundan əlavə, boru kəmərinə Türkmənistan və Qazaxıstan nefti də vurulur. Üç ölkənin - Azərbaycanın, Gürcüstanın və Türkiyənin ərazisində 1768 kilometr məsafə qət edən bu kəmər 2006-cı ilin ortalarında tam sistem kimi istifadəyə verilib. Həmin vaxtdan da fasiləsiz və ahəngdar fəaliyyət göstərir. BTC-nin əməliyyatçısı olan bp şirkətinin məlumatına görə, istismara daxil olduğu vaxtdan bu ilin birinci yarısının sonunadək kəmərin daşıdığı neft Ceyhanda 5402 tankerə yüklənərək dünya bazarlarına göndərilib.



Cari ilin yanvar-sentyabr aylarında qazın həm hasilatında, həm də ixracında artım müşahidə edilib. Energetika Nazirliyindən bildirildiyinə görə, bu ilin ilk doqquz ayında 5 faiz artımla hasil edilmiş 36,1 milyard kubmetr təbii qazın 17,8 milyard kubmetri ixrac olunub.

Hazırda Azərbaycan qazı 6 ölkəyə - Gürcüstana, Türkiyəyə, Yunanıstana, Bolqarıstana, İtaliyaya və Rumıniyaya çatdırılır. Qaz ixracını Gürcüstana Cənubi Qafqaz Boru Kəməri (CQBK) 2006-cı ilin sonlarından həyata keçirir. 2007-ci ilin ortalarından CQBK-ya qoşulan 280 kilometrlik əlavə xətlə (bütövlükdə Bakı-Tbilisi-Ərzurum kəməri) Türkiyə də Azərbaycan qazı alır. Hazırda Türkiyəyə ixrac olunan qazın xeyli hissəsini Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) daşıyır. TANAP-la Türkiyəyə kommersiya qazının nəqlinə 2018-ci il iyunun 30-da başlanıb.

TANAP-la birləşən Trans-Adriatik Qaz Boru Kəməri (TAP) isə üç ilə yaxındır Azərbaycan qazını Avropaya da çatdırır.

Qarşıdan qış fəsli gəlir. Bu fəslin qarlı-şaxtalı günlərində Azərbaycan qazına tələbat daha da artacaq. Bu isə o deməkdir ki, istehlakçı ölkələrdə minlərlə insanın mənzili və iş otağı Azərbaycan qazı ilə isinəcək.

Beləliklə, Azərbaycan torpağının təkindən və Xəzərin ölkəmizə məxsus sektorundan əldə olunan karbohidrogenlər xalqımıza gəlir gətirməkdə davam edir. ARDNF-nin (Azərbaycan Respublikası Dövlət Neft Fondu) məlumatına görə, bu ilin əvvəlindən sentyabrın 1-dək "Şahdəniz" kondensatının satışından əldə olunan gəlirin həcmi 259,554 milyon dollar təşkil edib. Xatırladaq ki, bu, son onilliklərdə dünyada kəşf olunmuş ən böyük və perspektivli karbohidrogen yataqlarından biridir. İlkin hesablamalara görə, "Şahdəniz"in təxminən 1 trilyon kubmetr qaz və 2 milyard barel kondensat ehtiyatı var.

"Azəri-Çıraq-Günəşli" yataqlarından ilk neftin əldə olunmasından isə 26 ilə yaxın vaxt keçir. Ötən dövr ərzində AÇG hasilatını ahəngdar şəkildə davam etdirib və Prezident İlham Əliyevin dediyi kimi, ölkəmizin əsas gəlir mənbəyi olub. AÇG bu gün də fasiləsiz və təhlükəsiz fəaliyyət göstərərək yeni uğurlara imza atır. Bunu Azərbaycan Respublikası Dövlət Neft Fondunun məlumatı da təsdiqləyir. Belə ki, cari il yanvarın 1-dən sentyabrın 1-nə qədər "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan 4 milyard 728 milyon dollar həcmində gəlir əldə edilib.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Goranboylular bu il əvvəlki ildəkindən 5 ton çox tütün təhvil veriblər

**Son illər ölkəmizin kənd təsərrüfatında yüksək inkişaf göstəricilərinə nail olunmuşdur ki, bunun da bir sıra səbəbləri var. Onlardan ən başlıcası aqrar sektora göstərilən dövlət qayğısıdır.**



Dövlət başçısının rəhbərliyi altında həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlərin nəticəsidir ki, kənd təsərrüfatı sürətlə inkişaf edir. Xüsusilə ənənəvi kənd təsərrüfatı məhsullarının istehsalı daha da artır. Belə məhsullardan biri də tütündür. Bu sahədə goranboylular hər il yüksək göstəricilər əldə edirlər.

Azərbaycanda ikinci texniki sahə sayılan tütünçülük rayonda sürətlə inkişaf etdirilir. Bu gəlirli sahə ilə əsasən Zeyvə, Yenikənd, Şəfəq, Qarbucaq, Todan və Qaraçinar kəndlərinin sakinləri məşğul olurlar. 8 ildir ki, tütün əkən və hər il bol məhsul toplayan Zeyvə kəndinin sakini Pərviz Nəsirov deyir ki, kənd təsərrüfatında gəlirli sahələrdən biri olan tütünçülük insanların maddi vəziyyətinə böyük təsir göstərir. Lakin onun mütərəqqi üsullarla becərilməsi və qurudulması üçün lazımi işlər görülməlidir. Tütün istehsalı üçün həyatımdə hər cür şərait yaratmışam. Topladığım tütünü indi qurudulmuş halda təhvil verirəm ki, bu da ailə büdcəmizə xeyli əlavə gəlir gətirir.

Rayonda bu sahədə təcrübə toplamış çoxlu sayda insan var. Məsələn, Şəfəq kəndinin sakini Səməd Yaqubov ilk illər o qədər də yüksək göstəriciyə nail olmasa da, indi bol tütün məhsulu əldə edir. O, Türkiyədən gətirdiyi "Trabzon" sortunu əkib becərir. Əvvəlki illərdə olduğu kimi, bu il də plantasiyalarda bol məhsul yetişdirmişdir. Yığılan tütünü elə əkin sahəsinin yanında düzəltdiyi talvarda qurudur. Qurudulmuş tütünü saxlamaq üçün anbar da inşa etdirmişdir.

Qeyd edək ki, cari təsərrüfat ilində Goranboy rayonunun Zeyvə kəndində 2 hektar, Şəfəq, Qaraçinar, Yenikənd və Qarqucaq kəndlərinin hər birində 1,5 hektar sahədə tütün əkilmişdir. Hazırda sahələrdə son yığım gedir. Qurudulmuş məhsul yubadılmadan tədarük edilir. İndiyədək rayonda keçən ildəkindən 5 ton çox tütün təhvil verilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Çinli qonaqlar SDU-da olublar

**Sumqayıtda səfərdə olan Çin Xalq Respublikasının Sian şəhərinin vitse-meri Van Syaolini şəhərin yeganə ali təhsil müəssisəsi olan Sumqayıt Dövlət Universitetini (SDU) ziyarət edib.**



Universitetin rektoru Rüfət Əzizov qonaqlara bildirib ki, hazırda Azərbaycanla Çin arasındakı dostluq münasibətləri təhsil sahəsində də uğurla inkişaf edir. Rektor SDU-nun fəaliyyətindən və beynəlxalq əlaqələrindən geniş söz açıb. Qeyd edilib ki, son illər ölkədə təhsilin inkişafı istiqamətində mühüm addımlar atılır. Təhsilin normativ hüquqi bazası təkmilləşdirilir, maddi-texniki təminatı istiqamətində Azərbaycan Respublikası Prezidentinin sərəncamları əsasında geniş tədbirlər həyata keçirilir. Bu istiqamətdə Sumqayıt Dövlət Universiteti beynəlxalq əlaqələrini gündən-günə genişləndirir, müəllim-tələbə mobilliyi istiqamətində mühüm nailiyyətlər əldə edilir. Yüksəkixtisaslı kadr hazırlığı məqsədilə SDU dünyanın bir çox qabaqcıl ali təhsil müəssisəsi ilə sıx əməkdaşlıq edir.

Van Syaolini səmimi qəbula görə rektor Rüfət Əzizova məmnunluğunu ifadə edib və belə görüşlərin keçirilməsinin ölkələrarası münasibətlərin möhkəmlənməsinə fayda verəcəyini qeyd edib.

Görüşdən sonra qonaqlar universitetin inzibati binasına, burada fəaliyyət göstərən Heydər Əliyev Mərkəzinə, "Code Academy"yə, ayrı-ayrı auditoriya, laboratoriya və tədris kabinələrinə baş çəkib. Sumqayıt Dövlət Universiteti ilə tanışlıq zamanı təhsil müəssisəsinin maddi-texniki bazası haqqında qonaqlara ətraflı məlumat verilib. Qeyd olunub ki, universitetdə 6000-dən çox tələbə elmin sirlərinə yiyələnir. Gələcəkdə Sumqayıt Dövlət Universitetinin Çin universitetləri ilə əməkdaşlığı haqqında fikir mübadiləsi aparılıb.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Şirvanda yeni həkim məntəqəsi açılıb

**Şirvan şəhərində keçmiş məcburi köçkünlər yaşayan kompleksdə yeni həkim məntəqəsinin açılışı olub.**



Tədbirdə Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, YAP Şirvan Şəhər Təşkilatının sədri Zahir Qəhrəmanov, Dövlət Təhlükəsizliyi Xidmətinin Şirvan Şəhər Şöbəsinin rəisi Mehman Qasımov, Şirvan Şəhər Polis Şöbəsinin rəisi Fizuli Əhmədov, Şirvan Şəhər Mərkəzi Xəstəxanası PHŞ-nin direktoru Pərviz Rüstəmbəyov, tibb işçiləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov yeni həkim məntəqəsinin açılışı münasibətilə qəsəbə sakinlərini təbrik edib. Bildirib ki, Azərbaycan səhiyyəsi Ulu Öndər Heydər Əliyevin yürütdüyü siyasət nəticəsində inkişaf yolundadır. Vətəndaşların sağlamlığına göstərilən qayğı Azərbaycanın həm bugünkü, həm də gələcək nəsillərinin sağlamlığının təminatıdır. Bu gün Azərbaycanda səhiyyənin inkişafına göstərilən dövlət qayğısının nəticəsidir ki, indi respublikamızın bütün bölgələrində müasir səviyyədə tibb ocaqları yaradılıb. Azərbaycan vətəndaşlarının hərtərəfli tibbi xidmətlə təmin edilməsi, onların müalicə və müayinə işinin yüksək səviyyədə təşkili, gələcəyimiz olan uşaqların sağlam yetişməsi istiqamətində icra edilən layihələr Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın daim diqqət mərkəzindədir.

Ötən ay Qarabağdakı erməni silahlı birləşmələrinə qarşı keçirilmiş və qələbə ilə başa çatmış tədbirlərdən söz açan İlqar Abbasov Qalib Ali Baş Komandan cənab İlham Əliyevin 15 oktyabrda Xankəndi şəhərində, Xocalı və Əsgəranda Azərbaycanın üçrəngli Dövlət bayrağının ucaldılmasının tarixi hadisə olduğunu vurğulayaraq, tədbir iştirakçılarını təbrik edib.

Tədbirdə çıxış edənlər qəsəbə sakinlərinə xidmət göstərəcək səhiyyə ocağının müasir tibb avadanlıqları ilə təmin edilməsinə, regionlarda əhalinin sağlamlığına göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.

Daha sonra tədbir iştirakçıları məntəqədə yaradılan şəraitlə tanış olublar.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Pambıq tarlaları hünər meydanına çevrilib

**Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov Azad Qaraqoyunlu kəndində fermer Rəhbər Hüseynovun pambıq tarlasına baxış keçirib, fermerlərə xeyir-dua verib.**

Prezident İlham Əliyevin kənd təsərrüfatının inkişafı ilə bağlı tövsiyələrinə uyğun olaraq bu il Tərtər rayonunda fermerlər və torpaq mülkiyyətçiləri tərəfindən 2242,1 hektar sahədə pambıq əkilmiş, aqrotexniki tələblərə əməl edilməsi nəticəsində tarlalarda bol məhsul yetişdirilmişdir.

Pambıq əkinlərinin 1125,1 hektarı "MKT İstehsal Kommersiya" MMC ilə, 1117 hektarı isə "Azərpambıq" MMC ilə bağlanmış müqavilələr əsasında həyata keçirilir. Artıq bir neçə gündür ki, sahələrdən məhsulun toplanmasına başlanılıb. Bu günə kimi 500 tondan çox məhsul toplanaraq təhvil verilib.



Pambıq yığımında ötən illərdə olduğu kimi yenə də texnikaya üstünlük verilib. Tarlalar maşınla yığım üçün aqrotexniki tələblər əsasında hazırlanıb.

Yığım zamanı kombaynlarda baş verəcək hər hansı nasazlıq prosesinin dərhal aradan qaldırılması üçün şirkətlər tərəfindən operativ təmir briqadaları fəaliyyət göstərir.

Hava şəraitindən asılı olaraq pambıq yığımının operativ, itkisiz, vaxtında yığılıb məntəqələrə çatdırılması üçün əmək ehtiyatları, mövcud texniki vasitələr səfərbər edilmişdir.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

Jurnalist araşdırması

# Ölümüzün acısını yaşayaq, yoxsa ehsan dərdi çəkək?

## Lüzumsuz yas adətlərindən qurtulmaq üçün Azərbaycan cəmiyyəti bu vacib suala cavab tapmalıdır

**"Atam rəhmətə getmişdi, amma itkinin ağrısını ancaq "yeddi" mərasimindən sonra yaşaya bildim. Çünki bu müddət ərzində rəhmətə gedən atamı ağlamaq əvəzinə dəfnin, "üç", "yeddi" mərasimləri zamanı verəcəyim ehsanların xərclərini necə ödəyəcəyimi düşünürdüm. İmkanım yaxşı olmasa da, borc-xərc pul tapıb ehsanları verdim. İndidən də il mərasiminə hazırlaşıram. Xeyli borca girmişəm. Bilirsiniz, istəsək də, istəməsək də, hamımız yasa gələn insanlara ehsan süfrələri açırıq, yemək veririk, axı eldən ayıbdır..."**



Bu, doğması rəhmətə gedən və ona el adətincə yas vermək üçün borca girən, dəbdəbəli süfrə açmağa məcbur olan sadə bir azərbaycanlının fikirləridir. Əminik ki, ölkəmizdə eyni vəziyyətlə üzləşən minlərlə, on minlərlə insan var.

Və o da reallıqdır ki, cəmiyyətimizin tam əksəriyyəti böyük xərclər çəkilərək ehsan süfrələrinin açılmasının əleyhinədir. Amma illərdir oturuşmuş tabuları yıxmağı, cəmiyyətin təpkisinə qarşı gəlməyi də çox az adam gözə alır. Tək-tük adam olur ki, ya ehsana xərcləyəcəyi pulu xeyriyyəçilik qurumlarına bəxş edir, ya da ümumiyyətlə, yas mərasimində yemək süfrəsi açmır.

### Yas mərasimlərinin də öz biznesi var

Xeyli müddətdir ölkədə yas mərasimlərinin biznesi də formalaşıb, yəni bu sahə əməlli-başlı qazanc yerinə çevrilib. Bu işlə məşğul olan şəxslər mərasimlərin dəbdəbəli keçirilməsi üçün yas sahiblərinə yüksəksəviyyəli xidmətlər təklif edirlər.

Məsələn, kirayə yas çadırlarının elanlarına nəzər saldıqda görürük ki, burada VIP və sadə çadırların qurulması, sifarişə uyğun ehsan süfrəsinin açılması, ofisiant, çayçı, qabyuyan, aşpaz, qab-qacaq, stol-stul, samovar və dəfn maşını təklif olunur.

Bu günlərdə Binə qəsəbəsində yası düşən Sevil xanım deyir ki, "yeddi" mərasimində qab-qacaq, stol-stulla birlikdə kirayələdikləri çadıra 450 manat ödəyiblər. Yeməyi özləri veriblər, lakin aşpaza 150, qabyuyana 30, məclisi idarə edən qadın mollaya isə 50 manat ödəyiblər.

Bakıda xeyli sayda mərasim evi də fəaliyyət göstərir. Hətta son illərdə bəzi şadlıq sarayları mərasim evi kimi fəaliyyət göstərməyə başlayıb.

Mərasim evlərində ehsan verməyin yas sahiblərinə neçəyə başa gəldiyini öyrənmək üçün kiçik araşdırma apardıq. Məlum oldu ki, göstərdiyi xidmətə görə hər mərasim evinin öz qiyməti var.

Məsələn, "Zəm-zəm" mərasim evində 100-150 nəfərlik məclis üçün yas sahibi 16 manatdan xidmət haqqı ödəməli olur. İstəyə görə, ya aş, ya da buğlama verilir. Məclisi idarə edən mollaya əlavə 50 manat ödənilir.

Əgər yas sahibi 500-600 nəfərlik ehsan verirsə, bu zaman mərasim evi qiymətdə müəyyən endirimlər edir.

"Hicaz" mərasim evində 150 nəfərlik məclis üçün, əgər yas sahibi qaralı aş verəcəksə, 13 manat, bozbaş verəcəksə 14 manat ödəməli olur. Molla üçün də ayrıca 60 manat verilir.

Təzə pir məscidində isə saydan asılı olmayaraq, qiymət standart - 15 manatdır. Bu məbləğə bir növ yemək - qaralı aş daxildir. Amma ehsana əlavə yeməklər daxil edildikdə, bu zaman qiymət hər yemək üçün 3 manat artırılır. Mollaya isə əlavə olaraq 50 manat ödənilir.

Bu yaxınlarda Təzə pir məscidində qaynanasına "üç" mərasimi verən Gülnaz xanımın sözlərinə görə, menyuya qaralı aşdan başqa, "fisincan" plov da əlavə etdikləri üçün 18 manat ödəyiblər: "Menyuda yarpaq dolması, "səbzi" plov da təklif olunurdu. Bizə saat 10-dan təxminən 13-30-a qədər müddət verildi ki məclisimizi keçirək. Çünki 14.00-dan etibarən yas verdiyimiz zalda başqa ehsan mərasimi olacaqdı. Sadəcə "üç" mərasimi üçün xeyli xərc çəkdik, hələ qarşıda "cümə axşamları", "qırx", "il" kimi məclislərimiz də var. Onları da "qaydasında" verməyə məcburuq, çünki bu, adətimizdir..."

### Məhəmməd Peyğəmbərin ehsanı necə verilib?

Bəs demək olar ki, hər kəsin gileyləndiyi, amma heç kəsin boyun qaçıra bilmədiyi bu dəbdəbəli yas mərasimlərindən necə qurtulaq?

Dini baxımdan da əhəmiyyətli olan bu məsələnin, əslində, islam qaydalarına uyğun olub-olmaması suallar yaradır.

Görəsən bugünkü yas məclislərindəki israfçılıq dinimizin buyruqlarına, islamın hökmlərinə uyğundurmu? Ümumiyyətlə, Məhəmməd Peyğəmbərin dövründə ehsan verilmə qaydası necə olub və peyğəmbərin özünün, əshabələrinin ehsanı necə verilib?

Azərbaycan İlahiyyat İnstitutunun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov deyir ki, insanların cəmiyyətin xeyri naminə etdikləri bütün yaxşılıqlar "ehsan" adlandırılır.

Konkret olaraq yaslarda ehsan verilməsi adətinə gəlincə, Aqil Şirinov söyləyir ki, Məhəmməd Peyğəmbərin dövründəki yas adətlərinə diqqət etdikdə görünür ki, həmin zaman bu gün yaslarda mövcud olan bir çox adət, məsələn, yemək verilməsi mövcud olmamışdır: "O dövrdə yas sahibi özü yemək verməz, əksinə, yası düşən ailəyə qohum-əqraba, qonşular yemək aparararmışlar. Bir misal çəkim, Həzrət Əlinin qardaşı Cəfər Təyyarın, - o həm də Peyğəmbərimizin əmisi oğlu olub, Mütə döyüşündə şəhid olmuşdu, - nəşi dəfn olunduqdan sonra Məhəmməd Peyğəmbər öz yaxınlarına "Cəfərin ailəsinə yemək hazırlayıb aparın, çünki onların başına müsibət gəlib" demişdir. Və üç gün ərzində həmin ailəyə yaxınları yemək aparıb vermişdilər, yəni yaslı ailə özü yemək bişirməmişdi".

### Hətta imkansız insanlar kredit götürərək yaxınlarına ehsan verirlər

Aqil Şirinovun sözlərinə görə, tədqiqatlardan da məlum olur ki, yası düşən ailələrə yaxınları tərəfindən yemək aparılması Peyğəmbərimiz dövründən etibarən bir qayda halına gəlmiş və şəriət kitablarında da üç gün müddətində ölən şəxsin ailəsinə yemək göndərmək "müstəhəb", yəni bəyənilən əməl sayılıb: "Amma yası düşənin evində nəsə yemək "məkruh", yəni bəyənilməyən əməl hesab edilib. Bu da onu göstərir ki, Peyğəmbərimiz dövründəki yaslarda bu gün ev sahibləri tərəfindən verilən təmtəraqlı ehsan olmayıb".

Tarixi mənbələrdə Məhəmməd Peyğəmbərin, həmçinin onun əhli-beyti və səhabələrinin vəfatı zamanı ehsan verildiyinə dair hansısa məlumata rast gəlinmədiyini qeyd edən Aqil Şirinov bildirir ki, bununla bağlı nə "Qurani-Kərim"də, nə də Peyğəmbərimizin hədislərində hansısa əmrə rast gəlinir: "Bu gün yas mərasimlərində mövcud olan israfçılığın dinimizlə heç bir əlaqəsi yoxdur və bu, bəyənilməmişdir. İslam dininin israfçılığa qarşı çıxması ilə bağlı "Qurani-Kərim"də xeyli ayələr mövcuddur, bu məsələ Peyğəmbərimizin hədislərində də öz əksini tapıb".

Rektor vurğulayır ki, əslində, insanlar ehsan adı altında əziyyət çəkirlər: "Hətta mətbuatda çıxan xəbərlərdən oxuyuruq ki, imkansız insanlar kredit götürərək yaxınlarına ehsan verməyə çalışırlar. Onların bu cür əziyyət çəkməyi doğru deyil və dinimiz tərəfindən də xoş qarşılanmır".

Aqil Şirinov son dövrlər ölkəmizin bəzi bölgələrində artıq bu ənənənin yığışdırıldığını və bunu müsbət hal kimi dəyərləndirdiyini söyləyir: "Yəni insanların "üç", "yeddi", "qırx", "il" mərasimlərində böyük məsrəflər çəkərək ehsan vermələri adəti bəzi bölgələrdə yığışdırılıb. Gələn insanlara yalnız çay verirlər və onlar da yas sahiblərinə hüznlərini bildirib gedirlər. Düşünürəm ki, bu müsbət ənənəni ölkənin hər tərəfində yaymaq və insanları buna təşviq etmək lazımdır".

### Şöhrətpərəstlik buna imkan vermir

Yaslarda təmtəraqlı ehsan verilməsinin kökündən həll edilə bilinəsi məsələ olmadığını deyən deputat Fazil Mustafanın fikrincə isə, insanlarımızın özü bu adətləri dəyişməkdə maraqlı deyillər.

COVID-19 pandemiyası zamanı israfçı toy və yas adətlərindən qurtulmaq üçün yaxşı fürsət yarandığını vurğulayan Fazil Mustafa bildirir ki, həmin dövrdə insanlar bu lazımsız adətlərdən uzaq oldular, lakin təəssüf ki, bu hal uzun sürmədi: "Yenidən insanlarımız əvvəlki israfçı toy və yas adətlərinə qayıtdılar. Bu, olduqca narahatedici məsələlərdən biridir. Çünki bizdə israfçılığın ən böyük sahəsi toy və yas məclisləridir. Bu həm də insanların özlərini sıxıntıya salmaları, əziyyətdir. Buna baxmayaraq, şöhrətpərəstlik imkan vermir ki, insanlar bu halı yüngülləşdirsinlər".

Deputat söyləyir ki, digər tərəfdən toy və yas mərasimləri üçün infrastrukturlar da elə qurulub ki, o yerlərdə mütləq müəyyən vəsait xərcləməli olursan. Yəni yeməksiz məclislərin verilməsinə bir çox mərasim evi maraq göstərmir. Buna maraq göstərən mərasim evlərində də vətəndaşlar məclis keçirmirlər: "Ona görə də belə bir təzadın içindəyik. Bu məsələlər mütləq gündəmə gətirilməlidir".


ELAN

Mahmudkənd sakinlərinin nəzərinə;

Hörmətli həmkəndlilər, dəyərli dostlar, nəzərinizə çatdırmaq istəyirik ki, kənd əhalisinin birgə qərarı ilə 10.09.2023-cü il tarixdən yas mərasimlərində 3, 7, 40 və il ehsanlarının verilməsi ləğv edilir.

Hər hansı bir şəxs bu qərarı pozarsa həmin mərasimdə heç kim iştirak etməyəcək!

Hörmətlə: KƏND AĞSAQQALLARI

Fazil Mustafanın sözlərinə görə, islam dinində olmayan "üç", "yeddi", "qırx" və sair kimi mərasimləri yalnız Azərbaycanda qeyd edirlər: "Ümumiyyətlə, belə mərasimlər islam dünyası deyilən mənbə ölkələrin heç birində yoxdur, amma onların hamısı Azərbaycanda qeyd edilir, istinad da edirlər ki, bu, adətimizdir".

"Əgər bu adətlər lüzumsuzdursa, onları niyə yaşatmalıyıq?!" deyə ritorik sual edən deputat deyir ki, insanların işini yüngülləşdirmək lazımdır: "Qoy insanlar öz ölüsünün hüznünü yaşasın, müəyyən problemlərini həll etsin. Əslində, cəmiyyətimizdə hər kəs bu prosesin iştirakçısına çevrilir, hamı bu problemi öz-özlüyündə yaşayır".

Fazil Mustafa eyni zamanda toylarda da bu tədbirlərin yüngülləşdirilməməsinin insanların özünə ziyan vurduğunu qeyd edir: "İnsan birgünlük özünü heç nə olmayıbmış kimi aparır ki, güya hər şey əladır, bir gün sevinir. Amma ondan sonra bir, iki il onun yükündən qurtula bilmir. Bu baxımdan həmin adətləri dəyişmək mümkün deyil".

Deputat vurğulayır ki, sadəcə ayrı-ayrı nümunələr təqdir olunmalıdır ki, insanlar da baxıb öz mərasimlərini yüngül formada, sıxıntısız keçirsinlər: "Yaxşı nümunələr artdıqca əvvəl-axır digər insanlar da ona doğru meyillənəcəklər. Budur çıxış yolu. Başqa hansısa bir çıxış yolu axtarmağın özü də əbəsdir".

### "İnsanları inzibati yollarla nəyəsə məcbur etmək olmaz"

Bəs Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yas mərasimlərinin hazırkı formada keçirilməsi ilə bağlı hansı mövqeyə malikdir?

"Azərbaycan" qəzetinin ünvanladığı sualları cavablandıran komitənin Dini təhsil şöbəsinin müdiri Elnarə Kərimova məlumat verir ki, yas mərasimlərinin keçirilməsi qaydalarının sadələşdirilməsi, mərasim zamanı israfçılığa yol verilməməsi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən dəfələrlə gündəmə gətirilib, bununla əlaqədar Qafqaz Müsəlmanları İdarəsi ayrıca fətva ilə çıxış edərək, mərasimlərin israfdan uzaq, islam dininə uyğun keçirilməsini tövsiyə etmişdir: "Mövqeyimiz ondan ibarətdir ki, insanları hansısa inzibati yollarla nəyəsə məcbur etmək olmaz. Bizim çağırışımız tövsiyə xarakterlidir. Tövsiyə edirik ki, israfdan yayınsınlar, dinimiz də israfı birmənalı olaraq pisləyir. Müqəddəs kitabımız Quranda da israf Allahın sevmədiyi əməl kimi qeyd olunur. İnsanlarımız da bu tövsiyənin mahiyyətinə varıb, islama zidd davranışlardan çəkinməlidirlər".

Elnarə Kərimova bildirir ki, yas mərasimləri insan övladının özü qədər qədim tarixə malikdir. Bu mərasim dünyada bilinən bütün mədəniyyətlərin ümumi rituallarından biridir. Böyük fəlakətlər, məğlubiyyətlər, ölümlər nəticəsində insanlar davranışlarıyla, sözləriylə öz kədərlərini bu mərasimlərdə ifadə etməyə çalışmışlar: "Həmin ayinlər zaman keçdikcə cəmiyyətdə riayət edilməsi vacib olan qayda halına gəlmişdir. Beləliklə də, bəşər sivilizasiyasının inkişaf tarixi boyunca dünyanın müxtəlif xalqlarının həyatında yas mərasimləri adət-ənənəyə çevrilmişdir. Adət-ənənəyə çevrilmiş mərasimlərdə hansısa bir qadağadan söhbət gedə bilməz, yalnız təbliğat, tövsiyələr yolu ilə bu məsələlər həll edilə bilər. Vətəndaşlarımız da özləri bu işdə nümunə olmaqla mərasimlərdəki israfçılıq hallarını aradan qaldıra bilərlər".

### Bütün dini icmalara, xüsusilə din xadimlərinə təbliğat işi aparmaları tövsiyə edilib

Dini təhsil şöbəsinin müdiri qeyd edir ki, təmsil etdiyi qurum tərəfindən bütün dini icmalara, xüsusilə din xadimlərinə istər məsciddə, istərsə yas mərasimlərində israfçılığın aradan qaldırılması üçün çağırış etmələri, həmçinin bunun dinimizdə yeri haqqında geniş təbliğat işi aparmaları tövsiyə edilib. Onlar da öz növbələrində məsciddə ikən xütbə və moizələrində, həmçinin dəvət olunduqları mərasimlərdə bu mövzuya geniş yer ayırırlar və insanlara israfçılıqdan yayınmaları üçün tövsiyələr verirlər.

Elnarə Kərimova məlumat verir ki, komitə Bakıda, eləcə də bölgələrdə keçirdiyi maarifləndirmə tədbirlərində qeyd olunan məsələyə xüsusi yer verir. Bütün bölgələrdə bu istiqamətdə maarifləndirici görüşlər keçirilir, bu sahənin mütəxəssisləri, xüsusilə ilahiyyatçıların iştirakı ilə cəmiyyətimizin maariflənməsi istiqamətində işlər görülür. Eyni zamanda televiziya kanallarında yayımlanan dini verilişlərdə bu mövzuya toxunulur və insanlara yas mərasimlərində israfçılıqdan uzaq olmaları məsləhət görülür: "Dövlət Komitəsi məsələ ilə bağlı dəfələrlə çağırışlar edib, tövsiyələr verib, mətbuatda geniş açıqlamalar yayımlayıb və maarifləndirici tədbirlərində bu mövzuya daim yer verib. Təbii ki, bundan sonra da yas mərasimləri ilə bağlı məsələ bizim üçün aktual olaraq qalır".

Mövzu ilə bağlı Qafqaz Müsəlmanları İdarəsinə ünvanladığımız suallara adıçəkilən qurumdan heç bir cavab verilmədi...

### Bəlkə, hər kəs öz ailəsindən, kəndindən başlasın... Mahmudkəndlilər kimi...

Sözsüz ki, yas mərasimlərində yol verilən israfçılıqla bağlı mövzu Azərbaycanda ilk dəfə gündəmə gətirilmir. Bununla bağlı jurnalist həmkarlarımız dönə-dönə tənqidi materiallar hazırlayıblar. Hətta əlaqədar qurumlar tərəfindən bu məsələlərin gündəmə gətirilməsinə baxmayaraq, problemin həlli üçün ortada heç bir konkret səy, təşəbbüs yoxdur. Problem qaldırılır və dərhal unudulur...

Bəs nə etmək lazımdır? Bəlkə də elə yas mərasimlərindəki lüzumsuz adətlərdən qurtulmaq üçün öz ailəmizdən, kəndimizdən başlamalıyıq?

Elə Naxçıvan Muxtar Respublikasının Şərur rayonu Mahmudkənd kəndinin əhalisi kimi. Belə ki, Mahmudkənd sakinləri birgə qərarları sayəsində 2023-cü il sentyabrın 10-dan etibarən yas mərasimlərində "üç", "yeddi", "qırx" və "il" ehsanlarının verilməsini ləğv ediblər. Kənd camaatı onu da elan edib ki, hər hansı şəxs bu qərarı pozarsa, həmin mərasimdə heç kim iştirak etməyəcək...

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Bəsitçay Dövlət Təbiət Qoruğu əvvəlki füsunkarlığına qovuşur

**Son illər dünyada baş verən müharibələr, təbii fəlakətlər, atmosferə buraxılan zərərli maddələr ekoloji tarazlığın pozulması ilə müşayiət olunur. Belə bir halda təbiətə qarşı daha diqqətli olmaq, onu var gücümüzlə qorumaq, yaşıllıqların artmasına çalışmaq təkcə vəzifə borcumuz deyil, həm də insani və vicdani tələbatımızdan irəli gələn missiyadır.**



İnsan yaradılışdan ona bəxş edilən "qorumaq" instinktini təbiətə də şamil edir. Dünyanın hər yerində xüsusi təbiət qoruqları yaradılıb. Qoruqları yaratmağın məqsədi nadir təbiət kompleksini təbii vəziyyətdə qoruyub saxlayaraq gələcək nəsillərə ötürməkdir. Dövlət qoruqları həm də elmi-tədqiqat obyektləri kimi elm adamlarının "əlindən tutur". Təbiət qoruqlarının torpaqlarından, eləcə də onun ərazisindəki sulardan, bitki və heyvanlar aləmindən təsərrüfat, yaxud şəxsi məqsədlər üçün istifadə etmək qadağandır.

Azərbaycanda xüsusi mühafizə olunan 11 dövlət təbiət qoruğu sayı azalmaqda və nəsli tükənməkdə olan bitki və heyvan növlərini qorumağa hesablanıb. Onlardan biri Bəsitçay Dövlət Təbiət Qoruğudur. Bu təbiət gözəli Azərbaycanın cənub-qərbində, Zəngilan rayonu ərazisində Bəsitçayın dərəsində yerləşir. Qoruğun adı bu çayın adı ilə bağlıdır. Bəsitçay sözü isə monqol mənşəli olub, beysut tayfasının adını daşıyır. Ehtimal ki, həmin regionda vaxtilə beysut tayfası məskunlaşıbdır. Qoruq ərazinin landşaft kompleksini, xüsusilə nadir təbii çinar meşəliyini qorumaq məqsədilə təşkil edilib. Meşə ilə örtülü qoruğun əsas ağacı Şərq çinarıdır. Qoruğun yerləşdiyi ərazi əsasən dağlıq olub, hündürlüyü dəniz səviyyəsindən 600-800 metrə qədərdir. Bəsitçay Dövlət Təbiət Qoruğunun ərazisində əsasən allüvial-meşə torpaqları yayılıb. Çay dərələrinin yamaclarında, qoruğun ətraf sahələrində qəhvəyi dağ-meşə torpaqları inkişaf edib.

Dünyada çinarın 7 növü var. Azərbaycanda isə onun yalnız bir növü - Şərq çinarı məskən salıb. Şərq çinarının çoxsahəli əhəmiyyətini, dünyada az yayılmasını, nadir bitki olmasını və son dövrlərdə xeyli azalmasını nəzərə alaraq, onun adı Azərbaycanın "Qırmızı kitabı"na yazılıb. Bəsitçay Dövlət Təbiət Qoruğunun 100 hektarını çinar meşələri tutur. Onlar Bəsitçayın və onun qolu Şıxauzçayın dərəsində yerləşir. Burada həm təmiz, həm də qarışıq çinar meşəliyi yayılıb. Qarışıq çinarlıqlarda qoz, dağdağan, tut, söyüd, qovaq və s. ağaclar, eləcə də yemişan, itburnu, murdarça, qaratikan kimi kollar inkişaf edib. Qoruqdakı çinar ağaclarının orta yaşı 165 il, orta hündürlüyü 35 metr, orta diametri isə 1 metrdir. Qoruğun ətraf sahələrində, bəzən də özündə canavar, çöl donuzu, porsuq, cüyür, dovşan, müxtəlif gəmirici məməlilərə, habelə kəklik, turac, göyərçin və s. quşlara rast gəlinir. Bu qoruğun yaradılması Azərbaycan təbiətinin nadir incilərindən olan Şərq çinarının qorunması və artırılması üçün diqqətəlayiq tədbirdir.

Bəsitçay Təbiət Qoruğu nə yazıq ki, üç onillik erməni vandalizminin qurbanı olub. Erməni barbarların nəzarətində olan bu təbiət gözəli çox böyük həcmdə zərərə məruz qalıb. Erməni barbarlar Bəsitçaydakı qiymətli ağacları, müxtəlif növ bioloji əhəmiyyətli nümunələri məhv ediblər. Bu da 85 hektar ərazinin 42 hektarlıq meşə örtüyü deməkdir. Çox yaşlı Şərq çinarları kəsilib. Onların köklərinin tamamilə itməsi üçün mənfur düşmən partlayıcı maddələri işə salıb. Ərazidə yanğınlar törədib, hətta qoruğun inzibati binasını dağıdıblar. 30 ilə yaxın bir müddətdə təkcə Azərbaycanın "Qırmızı kitab"ına deyil, həm də Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı siyahısı"na daxil edilmiş nadir təbiət incilərinin yox edildiyi Bəsitçay qoruğunda flora və faunaya külli miqdarda zərər vurulub. Ermənilər ətraf mühiti fiziki və kimyəvi çirklənməyə məruz qoyublar ki, bu da regionda ekoloji tarazlığın pozulmasına səbəb olub.

Bu vəhşilik Prezident İlham Əliyevin də diqqətindən yayınmayıb. Dövlət başçısı 2021-ci ilin yanvarında ilin yekunlarına həsr olunmuş müşavirədə bu məsələyə də toxunaraq deyib: "Azad edilmiş torpaqlarda eyni zamanda dövlət təbiət qoruqları və yasaqlıqlar olub. Mən bu məlumatı da Azərbaycan xalqına çatdırmaq istəyirəm. Zəngilan rayonunda Bəsitçay Dövlət Təbiət Qoruğu 1974-cü ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılıb. Bu, Avropada unikal meşə sayılır və burada nadir çinar ağacları var idi. Bu qoruq 107 hektarı əhatə edib, indi isə cəmi 42 hektarı qalıb. Bu, erməni vəhşiliyinin növbəti təzahürüdür. Bu, onu göstərir ki, onlar başa düşürdülər və bilirdilər ki, bu torpaqlarda müvəqqəti oturublar. Onlar bizim evlərimizi dağıdıblar, tarixi abidələrimizi dağıdıblar, məscidlərimizi dağıdıblar, meşələrimizi də dağıdıblar. Nadir çinar meşəsindən cəmi 42 hektar qalıb. Oraya da mütləq bir qrup ezam olunmalıdır, yerində təftiş aparılmalıdır və bu qoruq bərpa edilməlidir".

Təbiətə qarşı olan bu vandalizmin izlərini təmizləmək üçün Prezident 2021-ci il oktyabrın 20-də "Azərbaycan Respublikasının Bəsitçay Dövlət Təbiət Qoruğunun fəaliyyətinin təşkili ilə bağlı tədbirlər haqqında" sərəncam imzaladı. Sərəncama əsasən, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən qoruq ərazisində yerləşən təbiət obyektlərinin inventarlaşdırılması, həmçinin xarici və yerli mütəxəssisləri cəlb etməklə ekoloji vəziyyətin qiymətləndirilməsi aparılıb. Demək olar ki, ötən iki ildə 107 hektar sahədə yerləşən Bəsitçay Dövlət Təbiət Qoruğunun fəaliyyəti xeyli bərpa edilib. Qoruğun mühafizəsi, təbliği və fəaliyyətinin maddi-texniki təminatı ilə bağlı zəruri tədbirlər görülüb. Böyük qayıdış çərçivəsində qarşıda duran vəzifələrdən biri də məhz həmin ərazilərdə təbii və keyfiyyətli ekosistemin, bioloji müxtəlifliyin, habelə nadir və itməkdə olan bitki növlərinin sağlamlaşdırılmasıdır. Bu günə kimi görülən işlər əsas verir deyək ki, Bəsitçay adlı təbiət gözəlinin tam bərpası bütövlükdə regionun "yaşıl zona"ya çevrilməsi üçün şərait yaradacaqdır. Bu da o deməkdir ki, Bəsitçay Dövlət Təbiət Qoruğu özünün əvvəlki gözəlliyinə qovuşacaqdır.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*





# Mədəniyyət





## ● Elm xadimləri

**Elm və ürfan sahiblərinin belə bir deyimi var: "Dünyanı istəyən elmə sarılsın, axirəti istəyən yenə elmə sarılsın". Hələ uşaqkən atası Məmmədəli kişi övladına ərəb, fars əlifbasını öyrədərkən demişdi ki, "alimin ziyası aləmə nur çilər. Alimlərin sirrinə vaqif olmaq istəyirsən, elm öyrən". Kiçik yaşlarından ürfan fəlsəfəsinə böyük maraq, kainatın sirlərini öyrənmək arzusu Vasimi Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinə gətirdi. Tələbəlik həyatının elə ilk illərində dərin zəkası, biliyi, bacarığı, çalışqanlığı ilə təhsil aldığı universitetdə tanınır və ona ümid bəslənirdi...**



# Alimin ziyası aləmə nur çilər

### Vasim Məmmədəliyev belə ziyalılardan idi

Ölkəmizdə islam dəyərlərinin təbliğ və təşviqində xüsusi xidmətləri ilə seçilən, "Qurani-Kərim"in tərcüməsində mühüm rol oynamış şəxslərdən biri, dövlət-din münasibətlərinin yaranmasında əvəzsiz rolu olan, Azərbaycan elminə dünya şöhrəti qazandıran, ərəb dilçiliyini ümumiləşdirən, klassik ədəbiyyatı dərindən mənimsəməklə yanaşı, ingilis, rus, ərəb, türk, fars dillərini mükəmməl bilən Vasim Məmmədəli oğlu Məmmədəliyev 1942-ci il avqustun 27-də Bakının Kürdəxanı kəndində anadan olub. 1959-1964-cü illərdə BDU-nun Şərqşünaslıq fakültəsinin ərəb filologiyası şöbəsini bitirib. Azərbaycanda ərəb dilinin mükəmməl bilicisi Ələsgər Məmmədovun tələbəsi olub. Tiflis Dövlət Universitetinin aspiranturasında təhsilini davam etdirən gənc ərəbşünas akademik Georgi Seretelinin tələbəsi olub. Tiflisdə oxuduğu zaman Vasim Məmmədəliyev dünya şöhrətli bu alimin tövsiyələrinə diqqət yetirir, ondan elmi istiqamət alır, eyni zamanda özü də Quranın anlamı, islam dini qaynaqlarının öyrənilməsinə aid bir çox məsələnin tədqiqində gürcü ərəbşünaslarına elmi istiqamət verirdi. 1974-cü ildə 32 yaşında "Müasir ərəb ədəbi dilində feilin zaman, şəxs və şəkil kateqoriyaları" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək SSRİ-də ən gənc elmlər doktoru elmi dərəcəsinə sahiblənən ərəbşünas alim oldu. O, Azərbaycanda ərəbşünaslıq sahəsində yeni məktəbin yaranmasının əsasını qoydu.

Ərəbşünaslığın öyrənilməsində öz yolu, dəst-xəti olan Vasim Məmmədəliyev "istər klassik ərəb dilçilik məktəbləri haqqında "Ərəb dilçiliyi", "Bəsrə qrammatika məktəbi", "Kufə qrammatika məktəbi", "Quran və elm" kimi monoqrafik tədqiqatlarında gərgin elmi araşdırmalar aparmışdır. Görkəmli Azərbaycan ərəbşünasının elmi nəticələri VII əsrdən bəri Bəsrə, Kufə, Bağdad, Misir və Əndəlus filoloqları arasında böyük diskussiyalar, klassik ərəb dilinin fonetika, morfologiya, sintaksis və leksikologiyasında mübahisə doğurmuş 121 məsələnin müasir dilçilik elminin nəticələri əsasında aydınlaşdırılmasında mühüm rol oynamışdır.

Akademik V.Məmmədəliyev tədqiqatlarında Orta əsr ərəb filoloqları, Avropa şərqşünasları, rus və müasir ərəbşünasların ərəb dilçiliyi və qrammatika məktəblərinə dair fikir və mülahizələrinə münasibət bildirmiş və bu sahənin öyrənilməsində yeni nəticələr əldə etmişdir. Onun qənaətləri şərqşünaslıq və ümumi dilçilik üçün çox dəyərlidir. Bu qiymətli əsərləri ilə akademik V.Məmmədəliyev Azərbaycan ərəbşünaslığının nüfuzunu dünyada tanıtdırmışdır. İftixarla deyə bilərik ki, alimin elmi əsərləri eyni zamanda dünya şərqşünaslığına verilmiş ən layiqli töhfədir.

Vasim Məmmədəliyevin əsas üstünlüyü ərəb, fars, türk filologiyasını olduqca yaxşı bilməsi, bu dillərlə yanaşı, rus və ingilis dillərinə də mükəmməl yiyələnməsidir. Çoxsaylı qaynaqlardan müqayisə yolu ilə nümunə və mühakimələri orijinaldan tərcümə etmək hər tədqiqatçıya nəsib olan xoşbəxtlik deyil.

Akademik Vasim Məmmədəliyevin ərəb Şərqi və islam dünyası haqqında biliklər xəzinəsində ərəb dilçiliyi, ədəbiyyatı və tarixi, Şərq filologiyası və mürəkkəb poetika sistemi, islam tarixi, Azərbaycan ədəbiyyatı, əruz və musiqi, muğam sənəti və ifaçılıq tərzi haqqında mühazirə, söhbət və mühakimələri hamı tərəfindən maraqla dinlənilirdi.

V.Məmmədəliyev Şərq dünyasını, ərəb filologiyasını öyrənməklə birtərəfli mövqedə durmur, dünya mədəniyyətinin və Qərb sivilizasiyasının dəyərli məqamlarını təqdir edərək bəşər elminin inkişafına öz payını verirdi. O, elm və din problemi haqqında ilahi kəlamları əsas tutan bir araşdırıcı kimi ilahiyyat elminin uğur qazanmasında əvəzsiz xidmət göstərib. Bakı Dövlət Universitetində İlahiyyat fakültəsinin təşkil edilməsi də V.Məmmədəliyevin adı ilə bağlıdır. Vasim müəllim əmək və elmi fəalliyyətinin bir hissəsini həmin fakültənin dekanı, eyni zamanda Şərqşünaslıq fakültəsində ərəb filologiyası kafedrasının müdiri vəzifəsində davam etdirmişdir. Görkəmli ərəbşünas alim həm də Qafqaz Müsəlmanları İdarəsi nəzdində fəaliyyət göstərən Elmi-Dini Şurada çalışmışdır. Akademik V.Məmmədəliyev islam dini və elm, Qurani-Kərim və elm mövzularının müasir, müstəqil Azərbaycan şəraitində ictimai dərkini asanlaşdırmaq üçün əsərlər yazır, çıxışlar edir və maraqlı söhbətlər aparırdı.

Vasim müəllim bəşəri fəaliyyət göstərən alimlərdən idi. Xatırladaq ki, insanların ən böyük mənəvi ehtiyacı olan Qurani-Kərimin Azərbaycan dilinə tərcüməsi də akademik Ziya Bünyadovla birgə onun adı ilə bağlıdır.

V.Məmmədəliyev İslam Konfransı Təşkilatı xətti ilə, dünyanın bir sıra ölkələrində - Misir, İraq, Suriya, Səudiyyə Ərəbistanı, Mərakeş, Birləşmiş Ərəb Əmirlikləri, Liviya, Küveytdə, habelə Türkiyə, İran, ABŞ, İtaliya, Polşa, İndoneziya, Çad Respublikasında keçirilən elmi-dini konfranslarda, simpoziumlarda ölkəmizi ləyaqətlə təmsil edib, bəzən isə mötəbər tədbirlərə sədrlik edib. Bu məqamda Azərbaycan-ərəb ədəbi, elmi və mədəni əlaqələrinin inkişafında görkəmli alimin rolu və fəaliyyəti xüsusi qeyd olunmalıdır.

V.Məmmədəliyevin Rabatda Təhsil, Elm və Mədəniyyət işləri üzrə İslam Təşkilatının (İSESCO) xətti ilə nəşr etdirdiyi "Azərbaycan dilinin ərəb hərflərilə ifadəsi" kitabı ərəb oxucularını Azərbaycan dilinin tarixi, dil və əlifba, ərəb əlifbasının tarixi rolu kimi məsələlərlə tanış etmək üçün ən etibarlı vasitədir.

Alimin 60-dan çox məqaləsi Bağdad, Mərakeş, Əbu Dabi, Tehran, İstanbulda "Sovtul-ittihad", "Əd-diya", "Əl-iqtisad-əl-islami", "Varlıq", "Türkiyə Diyanət Vəqfi", "Ədəbestan" və başqa jurnallarda işıq üzü görmüş və "Füzuli əl-Bağdadi" məcmuələrində nəşr edilmişdir.

Onun ərəb dilinə tərcümə etdiyi "Xaqani Şirvani. Rübailər", "Cəlil Məmmədquluzadə. Hekayələr", "H.Araslı. Xaqani Şirvani" kitabçası, rus müəllifi professor A.Rojdestvenskinin "Fikrət Əmirov" monoqrafiyası və F.Əmirovun "1001 gecə" baletinin librettosu ərəb oxucularının böyük marağına səbəb olmuşdur.

Misirli Məhəmməd Abdulla Əbu Zeyd, suriyalı Əbdülfəttah ibn Rəmzi və Rizvan Dibsi akademik Vasim Məmmədəliyevin elmi rəhbərliyi ilə filologiya üzrə doktorluq dissertasiyası müdafiə etmişlər. Ümumiyyətlə, alim bu sahədə 20-yə qədər doktorantın opponenti olmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycanın və Dağıstanın Əməkdar elm xadimi, Qafqaz Müsəlmanları İdarəsi Elmi-Dini Şurasının sədri V.Məmmədəliyev göstərdiyi çoxsahəli fəaliyyətinə görə Azərbaycan Respublikasının Əməkdar elm xadimi fəxri adına layiq görülmüş, "Şöhrət", "Şərəf" ordenləri ilə təltif edilmiş, "Qızıl çinar" beynəlxalq mükafatını almışdır.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## ● Təqvim

# Böyük gülüş ustası







**Mirzəağa Əliyevin Azərbaycan milli teatr və kino sənətinin inkişafında rolu danılmazdır. Onu unudulmaz edən həm də bənzərsiz aktyorluq məharətidir. Bu məharət sayəsində Mirzəağa Əliyev çox tez məşhurlaşdı və sənətin zirvəsində əbədi yer tutdu…**

### Arzuların işığında...

O, 1883-cü ildə Hövsan kəndində dünyaya gəlib. Atası Əli kişi özünü oda-közə vursa da, ailəsi kasıb güzəran keçirirdi. Onları Bakıya da yoxsulluq gətirmişdi. Əli kişi çox istəyirdi ki, oğlu oxuyub bir sənət sahibi olsun.

İlk təhsilini mollaxanada alan Mirzəağa sonra Bakıda rus-tatar məktəbində oxudu. Həmin məktəbi 1895-ci ildə bitirdi. Sənədlərini peşə məktəbinə verdi. Ancaq bu dəfə də Əli kişinin arzusu gözündə qaldı. Oğlu maddi sıxıntılara görə sənət məktəbində təhsilini davam etdirə bilmədi. Mirzəağa evə qazanc gətirmək, ailənin yükünü yüngülləşdirmək istəyirdi. Milyonçu Hacı Zeynalabdin Tağıyevin toxuculuq fabrikində fəhləliyə başladı. Aktyorluq sənətinə marağı, sevgisi də həmin vaxtlarda başladı. Bir neçə dəfə tamaşalara baxmağa getdi.

Qəlbinin dərinliklərində baş qaldıran aktyorluq sənətinə sevgisi işığa dönüb bütün arzularını, xəyallarını aydınladırdı. Səhnəyə hələ ki, səsi, ünü yetmirdi. Azərbaycanlı aktyorlarla görüşüb tanış olmaq fikri başından çıxmırdı. 1898-ci ildə aktyor Murad Muradovla tanış olması Mirzəağanı çox sevindirdi. Söhbət əsnasında aktyora niyyətini açıb danışdı.

Sonralar sənət yoldaşı olduğu aktyor Mustafa Mərdanov Mirzəağa Əliyev barədə qələmə aldığı xatirələrində o görüşdən belə bəhs edib: "Murad Muradov Mirzəağanı evinə dəvət edir. Mirzəağa Əliyev bu görüşü xatırlayaraq belə deyir: "…Həmin gün axşam Murad Muradovun evində "Müsibəti Fəxrəddin" əsəri məşq olunurdu. Muradov məni teatr həvəskarları ilə tanış etdi. Mən xüsusilə Nəcəf bəy Vəzirovla tanış olduğum üçün özümü xoşbəxt hesab etdim".

Beləliklə, Mirzəağa Azərbaycan artistləri, dramaturqları ilə tanış olub, onlarla işləməyə başlayır.

Mustafa Mərdanov 1901-ci il mayın 18-dən Mirzəağa Əliyevin həyatında yeni yaradıcılıq dövrünün başlandığını və onun öz taleyini həmişəlik teatr sənətinə bağladığını, həmin il ilk dəfə Nəcəf bəy Vəzirovun "Müsibəti Fəxrəddin" pyesində Şahmar bəy rolunu ifa etdiyini yazıb.

Beləliklə, Azərbaycanda mədəniyyətin, incəsənətin inkişafı naminə cani-könüldən çalışan Nəcəf bəy Vəzirov, Məhəmməd bəy Məlikov, Cahangir Zeynalov, Əbülfət Vəliyev, Mehdi bəy Hacınski, Bədəl bəy Bədəlbəyli, Murad Muradov kimi ziyalılar arasında Mirzəağa Əliyev də yer tutdu.

Gənc aktyorun istedadı, bənzərsiz ifası sənətsevərlərin diqqətini çəkdi. Teatrların truppa rəhbərləri onu tamaşalarda iştirak etmək üçün dəvət edirdilər. Mirzəağa Əliyev dövrünün tanınmış aktyorları ilə İrəvan, Tiflis, Naxçıvan, Gəncə, Batum, Həştərxan, Tehran, Təbriz, Rəşt, Ənzəli şəhərlərində uğurlu qastrol səfərlərində oldu.

İldən-ilə daha çox tanınır, sevilirdi. O, artıq Azərbaycan teatr sənətində görkəmli komiklərdən biri hesab edilirdi. Mətbuatda dərc olunan məqalələrdə tez-tez aktyor Mirzəağa Əliyevdən də bəhs edilir, onun istedadını qiymətləndirirdilər.

Qədəm qoyduğu sənət dünyasında ona yol göstərənləri, aktyor kimi yetişməsinə təsir edənləri - Azərbaycan teatr xadimlərindən Nəcəf bəy Vəzirovu və Cahangir Zeynalovu həmişə ehtiramla yada salırdı. Aktyor Cahangir Zeynalovdan danışanda "Mən müəllimim Cahangir Zeynalova ömrüm boyu borcluyam" deyirdi. Müəlliminin tövsiyələrini unutmadığını qeyd edirdi: "O, mənə həmişə deyərdi: nəbadə-nəbadə tamaşaçıları güldürməyə çalışasan, ancaq surəti düzgün verməyə çalış. Tip və surət ki düzgün verildi, o vaxt öz-özünə gülüş əmələ gələcəkdir".

Mirzəağa Əliyevin çox tez tanınmasının səbəbi onun istedadlı olması idi. Ancaq bu, yeganə səbəb deyildi. Mirzəağa Əliyev bənzərsiz aktyor idi. Vurğunu olduğu sənətkarın belə təsirinə düşmədi. Sənətdə yolunu özü seçdi. Odur ki, sənət yoldaşı Mustafa Mərdanov onun haqqında xatirələrində yazırdı: "Cahangir Zeynalovun yaradıcılığına nə qədər pərəstiş etsə də, onu mənasız təqlid etməzdi, çünki Mirzəağa şüursuz təqlid etməyi aktyor yaradıcılığında ən qorxulu bir hal hesab edirdi. Əslində, başqasını təqlid etmək ona heç də lazım deyildi, çünki Mirzağa fitrətən istedadlı bir komik idi. Onun hər dəfə səhnədə görünməsi tamaşaçılara təbəssüm, xoş əhval və şadlıq gətirirdi".

Ayrı-ayrı müsəlman həvəskar teatr truppalarının meydana çıxdığı bir vaxtda gənc Mirzəağa Əliyev də "Həmiyyət"i yaratdı. O, 1906-1907-ci illərdə "Həmiyyət" teatr truppasının rəhbəri və aktyoru oldu. Truppa əsasən Bakının fəhlə rayonlarında tamaşalarla çıxış edirdi. 1907-1912-ci illərdə Mirzəağa Əliyev "Nicat" cəmiyyətinin teatr truppasında çalışdı. 1912-ci ildə ictimai fəaliyyətinə görə Həştərxana sürgün edildi. 1912-1916-cı illərdə Volqaboyu şəhərlərdə, Tiflisdə, İrəvanda, İran və Türkiyənin bir sıra şəhərlərində tamaşalar verdi. 1916-cı ildə Bakıda tamaşaya qoyulmuş Cəlil Məmmədquluzadənin "Ölülər" komediyasında İsgəndər rolunu ifa etdi. Bu rol gənc aktyorun istedadının geniş, hərtərəfli üzə çıxmasına şərait yaratdı.

### İstedadın və zəhmətin mükafatı

Bakıda fəaliyyət göstərən bütün teatr truppaları 1919-cu ildə birləşdirilərək Türk Hökumət Teatrı yaradıldı. Teatrın yaradıcı heyətində Mirzəağa Əliyev də vardı.

1920-ci ildə Azərbaycanda sovet hakimiyyəti quruldu. Yeni teatrlar yaradıldı. 1921-ci ildə Türk Azad Tənqid-Təbliğ Teatrı təşkil edildi. Teatra Hacağa Abbasov direktor təyin olundu. Mirzəağa Əliyev təşkilatçılarından biri olduğu bu teatrda aktual mövzulu kupletlərlə çıxış edirdi.

Mirzəağa Əliyev 1924-cü ildən ömrünün sonunadək fəaliyyətini Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında davam etdirdi. Bu teatrın səhnəsində oynadığı rollarla tamaşaçıların ən çox alqışladığı aktyorlardan biri oldu.

Azərbaycan teatrı tarixində Mirzəağa Əliyevin adı ifa etdiyi bir-birindən maraqlı rollarla - "Ər və arvad" tamaşasında Kəblə Qubad, "Arşın mal alan"da Soltan bəy, "O olmasın, bu olsun"da Məşədi İbad, "Şah Abbas və Xurşid Banu"da Vəzir, "Sevil"də Atakişi, "Almaz"da Mirzə Səməndər, "1905-ci ildə" Əmiraslan bəy Salamov, "Yaşar"da Əmirqulu, "Od gəlini"ndə Oddamdı, "Aydın"da Balaxan, "Ölülər"də İsgəndər, "Müfəttiş"də Osip, "Hacı Qara"da Hacı Qara, "Skapenin kələkləri"ndə Skapen, "Toy"da Kərimov, "Xoşbəxtlər"də Bərbərzadə, "Dumanlı Təbriz"də Hacı Salman, "On ikinci gecə"də Ser Tobi, "Fiqaronun toyu"nda Qraf Almavno, "Kapitan Qrantın uşaqları"nda Poqanel, "Köhnə dudman"da Həmzə bəy, "Bəxtsiz cavan"da Mirzə Qoşunəli, "Əlli yaşında cavan"da Orduxan bəy, "Aşıq Qərib"də Güloğlan və başqa rollarla unudulmazdır.

Aktyorluq istedadını kino sənətində də mükəmməl rollarla göstərmiş Mirzəağa Əliyev 1917-1950-ci illər arasında ekranlaşdırılan "Arşın mal alan"da Süleyman bəy, "Bismillah"da Molla Mirzə Əbdürrəhim, "Müxtəlif sahillərdə" Amerikan fəhləsi, "Hacı Qara"da Hacı Qara, "Məhəbbət oyunu"nda VVAQ müdiri, "Almaz"da məktəb direktoru Səməndər, "O olmasın, bu olun"da Məşədi İbad və "Bakının işıqları"nda Əlibala kimi obrazları canlandırmışdır.

Mirzəağa Əliyev həm də "Qısqanclıq", "Məşədi evlənir", "Mollaxana", "Necə qan ağlamasın?", "Orada elə, burada belə" və digər birpərdəli pyeslərin müəllifidir.

Mirzəağa Əliyev istedadı və zəhməti sayəsində yüksək mükafatlara layiq görülüb, 1926-cı ildə Azərbaycan SSR-in Əməkdar artisti, 1933-cü ildə Azərbaycan SSR-in Xalq artisti, 1949-cu ildə isə SSRİ Xalq artisti fəxri adları ilə təltif olunmuşdur. Görkəmli səhnə ustasına iki dəfə - 1943-cü ildə Azərbaycan Dövlət Dram Teatrında Mirzə İbrahimovun "Məhəbbət" dramının tamaşasında Məşədi Qulamhüseyn rolunun, 1948-ci ildə Azərbaycan Dövlət Dram Teatrında Ənvər Məmmədxanlının "Şərqin səhəri" dramının tamaşasında Nəcəf bəy rolunun ifasına görə Dövlət mükafatı verilmişdir. "Qırmızı əmək bayrağı" ordeni, "Qafqazın müdafiəsinə görə" və "1941-1945-ci illər Böyük Vətən müharibəsində rəşadətli əməyə görə" medalları ilə təltif edilmişdir.

Mirzəağa Əliyev 1954-cü il oktyabrın 24-də vəfat etdi. Böyük aktyorun, gülüş ustasının Azərbaycan teatr sənətinin inkişafında xidmətləri unudulmadı.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## ● Xəbərlər

# Füzuli teatrı sərhəd qoşunlarının əsgər və zabitlərinə tamaşa göstərib





**Füzuli Dövlət Dram Teatrı dramaturq Xaqani Əliyevin "Molla Nəsrəddin" komediyasını sərhəd qoşunlarının əsgər və zabitləri qarşısında nümayiş etdirib.**

Tamaşanın quruluşçu rejissoru Nicat Mirzəzadə, quruluşçu rəssamı Ellinaz Balaşova, musiqi tərtibatçısı Ziyad Süleymanzadədir.

Tamaşada rolları Sehran Xanlarov, İntizar Quliyeva, Asif Şirinov, Qaçaq Qarayev, Əli Hüseynov, Sevinc Məmmədova, Şəlalə Nəsirova, Elçin Məmmədov, Vüqar Babayev, Emin Abışov, Vüsal Həsənov və başqaları ifa ediblər.

Keçmişlə bu günün sintezi olan tamaşa Molla Nəsrəddinin evlənmə hekayəsindən bəhs edir. Şən musiqilər və kütləvi rəqslərlə bol olan tamaşada maraqlı və gülməli hadisələr bir-birini əvəz edir.

Xoş əhvali-ruhiyyə yaradan tamaşadan sonra yaradıcı qrup zabit və əsgərlərimizlə xatirə şəkli çəkdirmişdir.

# Gəncə Dövlət Dram Teatrı İstanbulda V Maltəpə Beynəlxalq Teatr Festivalında iştirak edib



**Türkiyədə Avrasiya Teatrlar Birliyinin təşkilatçılığı ilə keçirilən və Maltəpə Bələdiyyəsinin dəstəyi ilə gerçəkləşən festivalda Gəncə Dövlət Dram Teatrı da iştirak edib.**

Festivalda rejissor Tural Mustafayevin quruluşunda E.Loneskonun "Kral ölüb" tamaşası nümayiş olunub.

Tamaşada əsas rolları Əməkdar artistlərdən Elxan Abbasov, İlham Hüseynov, Sevda Orucova, Kəmalə Məmmədova və aktyorlar Günay Cabbarova, Ruslan Hüseynov ifa ediblər.

Kral Beranje rolunu oynayan Elxan Abbasov festivalın yekununda "Ən yaxşı kişi aktyoru" nominasiyasında mükafata layiq görülüb. Teatrın direktoru Aqil Bəhramlı isə münsiflər heyətində yer alıb.

Festival zamanı Avrasiya Teatrlar Birliyinin toplantısı keçirilib. Toplantıda qurumun Azərbaycan üzrə təmsilçisi, teatrın aktyoru Yusif Cəfərov da iştirak edib.

Festivalda ölkəmizlə yanaşı, Türkiyə, Şimali Kipr, Gürcüstan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Portuqaliya, ümumilikdə 20-dək ölkə təmsil olunub.

# Gürcüstanda qəhrəman Rahib Məmmədovun heykəlinin açılışı olub

**Gürcüstanın Xobi rayonunun Çaladidi kəndində azərbaycanlı qəhrəman Rahib Məmmədovun heykəlinin açılışı olub.**



Tədbirdə Gürcüstanın Zemo-Svaneti bölgə rəhbərliyi, Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev, Türkiyənin Batumi şəhərindəki baş konsulu Rıza Kağan, Rahib Məmmədovun ailə üzvləri, Gürcüstan və Azərbaycan ictimaiyyətinin nümayəndələri, eləcə də media təmsilçiləri iştirak ediblər.

Bölgə qubernatorunun müavini Nino Viblianinin sözlərinə görə, əslən Azərbaycanın Ağdam rayonunun Mahrızlı kəndindən olan 19 yaşlı gənc 1987-ci ildə öz həyatı bahasına Çaladidi kəndinin 28 sakinini xilas edib. O deyib ki, Rahib Məmmədovun xatirəsi hər zaman anılır və bu gün ucaldılan heykəl Azərbaycan və Gürcüstan xalqlarının dostluğunun daha bir təzahürüdür.

R.Məmmədovun qardaşı Sahib Məmmədov isə deyib ki, abidənin açılışı onların ailəsi üçün sevindirici və qürurverici hadisədir: "Bu işdə əməyi olan hər kəsə ailəmiz adından şəxsən öz təşəkkürümü bildirirəm. Qəhrəmanlar unudulmur".

*R.SALMANLI,*
*"Azərbaycan"*

## Lənkəran Dövlət Universiteti
## *açıq tenderə dəvət edir*

Tender 1 LOT üzrə keçirilir:

**Lənkəran Dövlət Universitetinin H.Aslanov 50 ünvanında yerləşən yeni 2 mərtəbəli inzibati binasının tikilməsi**

Tender iştirakçıları **https://www.etender.gov.az/** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzalar vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. İxtisas uyğunluğunun müəyyənləşdirilməsində analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti, müqavilənin vaxtında yerinə yetirilməsi üçün zəruri potensial meyarlara üstünlük veriləcəkdir.

İştirak haqqının ödənilməsi yalnız "ASAN ödəniş" vasitəsilə həyata keçirilə bilər. Müsabiqədə iştirak etmək üçün portal üzərindən müsabiqəyə daxil olduqdan sonra "ASAN ödəniş et" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak edə bilərsiniz.

**İştirak haqqı - 450 (dörd yüz əlli) AZN**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (Sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir).*
2. *Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
3. *Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*
4. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Arayış 2023-cü ilin oktyabr ayı ərzində verilmiş olmalıdır və malgöndərənin öz öhdəliklərini yerinə yetirmək üçün potensial imkana malik olmasını təsdiq etməlidir, həmçinin arayışı verən orqan tərəfindən və ya notarial qaydada təsdiq olunmalıdır).*
5. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2022-ci il üzrə).*
6. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); Bank arayışı 2023-cü ilin oktyabr ayı ərzində verilmiş olmalıdır.*
7. *Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (İddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığını, təcrübəsini və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər təqdim edilməlidir (büdcə və ya fərdi sahibkarlarla müqavilələrin surətləri, layihənin həyata keçirilməsində iştirak edəcək işçilərin CV və mövcud sertifikatlar).*
8. *Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması; Malgöndərənin (podratçının) kommersiya qurumunun dövlət reyestrindən çıxarışın və vergi uçotunda olduğunu təsdiq edən sənədin surəti (sənədin notarial qaydada təsdiq edilməsi mütləqdir).*
9. *Mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Statistika Komitəsindən alınmalıdır. Sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir).*
10. *Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması; Malgöndərən (podratçı) uçotda olduğu vergi orqanından alır (Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir). Arayış 2023-cü ilin oktyabr ayı ərzində verilmiş olmalıdır.*
11. *Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması; Malgöndərən (podratçı) uçotda olduğu vergi orqanından alır (Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir). Arayış 2023-cü ilin oktyabr ayı ərzində verilmiş olmalıdır.*
12. *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi; Məhkumluq haqqında arayış (DİN və ya ASAN xidmət mərkəzlərindən);*
13. *Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziya və ya icazə.*
14. *AZS ISO 9001:2020, AZS ISO 14001:2021, AZS ISO 45001:2021 sertifikatlar.*
15. *Digər müvafiq sənədlər (Əsas şərtlər toplusunda müəyyən edilmiş müvafiq sənədlər).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

**İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 02 noyabr 2023-cü il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə 14 noyabr 2023-cü il saat 17:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.**

**İddiaçıların təklifləri 15 noyabr 2023-cü il saat 17:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.**

**Qeyd:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***



## Lənkəran Dövlət Universiteti
## *açıq tenderə dəvət edir*

Tender 1 LOT üzrə keçirilir:

**Lənkəran Dövlət Universitetinin 2 saylı tədris korpusunun həyətində 5 mərtəbəli yeni tədris korpusuna əlavələr və dəyişikliklərin edilməsi**

Tender iştirakçıları **https://www.etender.gov.az/** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzalar vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. İxtisas uyğunluğunun müəyyənləşdirilməsində analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti, müqavilənin vaxtında yerinə yetirilməsi üçün zəruri potensial meyarlara üstünlük veriləcəkdir.

İştirak haqqının ödənilməsi yalnız "ASAN ödəniş" vasitəsilə həyata keçirilə bilər. Müsabiqədə iştirak etmək üçün portal üzərindən müsabiqəyə daxil olduqdan sonra "ASAN ödəniş et" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak edə bilərsiniz.

**İştirak haqqı - 450.00 ( Dörd yüz əlli) AZN**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (Sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir).*
2. *Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
3. *Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*
4. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Arayış 2023-cü ilin oktyabr ayı əzrində verilmiş olmalıdır və malgöndərənin öz öhdəliklərini yerinə yetirmək üçün potensial imkana malik olmasını təsdiq etməlidir, həmçinin arayışı verən orqan tərəfindən və ya notarial qaydada təsdiq olunmalıdır).*
5. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2022-ci il üzrə).*
6. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); Bank arayışı 2023-cü ilin oktyabr ayı ərzində verilmiş olmalıdır.*
7. *Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (İddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığını, təcrübəsini və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər təqdim edilməlidir (Büdcə və ya fərdi sahibkarlarla müqavilələrin surətləri, layihənin həyata keçirilməsində iştirak edəcək işçilərin CV və mövcud sertifikatlar).*
8. *Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması; Malgöndərənin (podratçının) kommersiya qurumunun dövlət reyestrindən çıxarışın və vergi uçotunda olduğunu təsdiq edən sənədin surəti (sənədin notarial qaydada təsdiq edilməsi mütləqdir).*
9. *Mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Statistika Komitəsindən alınmalıdır. Sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir).*
10. *Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması; Malgöndərən (podratçı) uçotda olduğu vergi orqanından alır (Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir). Arayış 2023-cü ilin oktyabr ayı ərzində verilmiş olmalıdır.*
11. *Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması; Malgöndərən (podratçı) uçotda olduğu vergi orqanından alır (Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir). Arayış 2023-cü ilin oktyabr ayı ərzində verilmiş olmalıdır.*
12. *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi; Məhkumluq haqqında arayış (DİN və ya ASAN xidmət mərkəzlərindən).*
13. *Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziya və ya icazə.*
14. *Digər müvafiq sənədlər (Əsas şərtlər toplusunda müəyyən edilmiş müvafiq sənədlər).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

**İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 14 noyabr 2023-cü il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə 22 noyabr 2023-cü il saat 17:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.**

**İddiaçıların təklifləri 23 noyabr 2023-cü il saat 17:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.**

**Qeyd:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***


# Yeni ştamlar 60-a yaxın ölkədə aşkar edilib

**Bir neçə ildir bəşəriyyəti təhdid edən COVID-19 hələ də sovuşmayıb. Dünya ölkələri bu virusa qarşı davamlı mübarizə aparsa da, ona hələ ki, tamamilə qalib gəlmək mümkün olmayıb.**

Bu ilin mayında Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) yeni növ koronavirus pandemiyasının başa çatdığını elan etsə də, son aylar bir çox ölkədə COVID-19-a yoluxanların sayındakı artım problemin hələ də aktual olduğunu göstərir.



## Payız-qış mövsümündə peyvənd olunmaq lazımdır

ÜST-nin baş direktoru Tedros Adhanom Gebreyesus Cenevrədə keçirilən brifinqdə çıxışı zamanı dünyada koronavirus səbəbilə xəstəxanaya yerləşdirilən insanların sayının və ölüm hallarının nisbətinin artmasına diqqət yetirib. "Qrip, respirator sinsitial virus və COVID-19-un sinxron dövriyyəsi səhiyyə sistemlərində əhəmiyyətli pozuntulara səbəb ola bilər", - deyə ÜST rəhbəri bildirib. Yaranmış vəziyyətdə ÜST xüsusilə yüksək risk qruplarını həm qripdən, həm də COVID-19-dan peyvənd olunmağa çağırıb.

Baş direktor xatırladıb ki, hazırda qripə yoluxma hallarının sayı koronavirus pandemiyasından əvvəl müşahidə olunan səviyyəyə çatıb. COVID-19-un kəskin fazası zamanı görülən təhlükəsizlik tədbirləri nəticəsində qrip virusunun yayılması isə azalmışdı.

## Risk hələ də var

Son aylar Cənubi Koreya, Rusiya, ABŞ, Avstraliya, Qazaxıstan, Sinqapur və Avropanın bir sıra ölkələrində COVID-19-a yoluxma hallarında kəskin artım müşahidə olunur. Yüksək yoluxduruculuğa malik yeni ştamlar artıq 60-a yaxın ölkədə müəyyən edilib.

Epidemioloji vəziyyətin gərgin olduğu ölkələrdən biri də İsveçdir. Burada COVID-19-a yoluxma hallarının sayı artsa da, hələ ki, ölkə üzrə məhdudlaşdırıcı tədbirlərin tətbiqi planlaşdırılmır.

İsveçdə COVID-19 virusuna təsdiqlənmiş yoluxma hallarının sayı 38 faiz artıb. Hakimiyyət orqanları bəyan ediblər ki, yoluxmaların artması gözləniləndir. Artım intensiv müalicə şöbələrinə daxil olan insanların sayındakı dəyişiklikdə və COVID-19 virusu nəticəsində baş verən ölüm hallarının sayında müşahidə olunur.

Epidemioloq Maqnus Qisslen bildirib ki, risk qrupuna daxil olan 65 yaş və 65 yaşdan yuxarı insanlara bu payız mövsümi peyvəndlənmə tövsiyə edirik: "Nisbətən aşağı səviyyədə olmasına baxmayaraq, virusun yayılması artır. Ciddi xəstəliklər üzrə yüksək risk qrupuna daxil olan insanların qüvvədə olan tövsiyələrə müvafiq olaraq, həm COVID-19, həm də qripə qarşı peyvənd vurdurmaları vacibdir".

## Diqqətli olmalıyıq

Ölkəmizdə COVID-19-a yoluxanların sayında artım olsa da, vəziyyət nəzarət altındadır. Lakin buna baxmayaraq, hər bir insan üzərinə düşən məsuliyyəti dərk etməli, ehtiyat tədbirlərini əldən verməməli və səhhətinə qeyri-ciddi yanaşmamalıdır. İzdihamlı yerlərdən, havalandırılması zəif olan qapalı məkanlardan uzaq durmaq və sosial məsafəni qorumaq lazımdır. Bu mümkün olmadığı təqdirdə mütləq tibbi maskadan istifadə edilməlidir.

Gün ərzində gigiyenik qaydalara riayət etmək, əlləri tez-tez sabunla yumaq və antiseptiklə dezinfeksiya etmək mütləqdir. Digər vacib amil isə immunitetin zəifləməsinin qarşısının alınmasıdır. Bunun üçün gündəlik rasiona mövsümə uyğun meyvə və tərəvəzin əlavə edilməsinə xüsusi diqqət yetirilməlidir. Bu bəşəri bəlanın öhdəsindən yalnız birlikdə qalib gəlmək mümkündür.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***








## Lənkəran Dövlət Universiteti
## *açıq tenderə dəvət edir*

Tender 1 LOT üzrə keçirilir:

**Maşın və avadanlığın alınması**

Tender iştirakçıları **https://www.etender.gov.az/** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzalar vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. İxtisas uyğunluğunun müəyyənləşdirilməsində analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti, müqavilənin vaxtında yerinə yetirilməsi üçün zəruri potensial meyarlara üstünlük veriləcəkdir.

İştirak haqqının ödənilməsi yalnız "ASAN ödəniş" vasitəsilə həyata keçirilə bilər. Müsabiqədə iştirak etmək üçün portal üzərindən müsabiqəyə daxil olduqdan sonra "ASAN ödəniş et" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak edə bilərsiniz.

**İştirak haqqı - 100.00 (yüz) AZN**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (Sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir).*
2. *Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
3. *Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*
4. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Arayış 2023-cü ilin oktyabr ayı əzrində verilmiş olmalıdır və malgöndərənin öz öhdəliklərini yerinə yetirmək üçün potensial imkana malik olmasını təsdiq etməlidir, həmçinin arayışı verən orqan tərəfindən və ya notarial qaydada təsdiq olunmalıdır).*
5. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2022-ci il üzrə).*
6. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); Bank arayışı 2023-cü ilin oktyabr ayı ərzində verilmiş olmalıdır.*
7. *Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (İddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığını, təcrübəsini və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər təqdim edilməlidir (büdcə və ya fərdi sahibkarlarla müqavilələrin surətləri, layihənin həyata keçirilməsində iştirak edəcək işçilərin CV və mövcud sertifikatlar).*
8. *Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması; Malgöndərənin (podratçının) kommersiya qurumunun dövlət reyestrindən çıxarışın və vergi uçotunda olduğunu təsdiq edən sənədin surəti (sənədin notarial qaydada təsdiq edilməsi mütləqdir).*
9. *Mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Statistika Komitəsindən alınmalıdır. Sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir).*
10. *Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması; Malgöndərən (podratçı) uçotda olduğu vergi orqanından alır (Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir). Arayış 2023-cü ilin oktyabr ayı ərzində verilmiş olmalıdır.*
11. *Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması; Malgöndərən (podratçı) uçotda olduğu vergi orqanından alır (Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir). Arayış 2023-cü ilin oktyabr ayı ərzində verilmiş olmalıdır.*
12. *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi; Məhkumluq haqqında arayış (DİN və ya ASAN xidmət mərkəzlərindən).*
13. *Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziya və ya icazə.*
14. *Digər müvafiq sənədlər (Əsas şərtlər toplusunda müəyyən edilmiş müvafiq sənədlər).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

**İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 14 noyabr 2023-cü il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə 22 noyabr 2023-cü il saat 17:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.**

**İddiaçıların təklifləri 23 noyabr 2023-cü il saat 17:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.**

**Qeyd:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***


**AAAR park yaşayış kompleksi tərəfindən küçə 26, bina 3, mənzil 77-də yaşayan Sədi İlqar oğlu Sədibəyliyə verilmiş evin müqaviləsi itdiyi üçün etibarsız sayılır.**

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının kollektivi Ümumi şöbənin əməkdaşı Aynurə Bədirovaya anası

**ADİLƏ XANIMIN**

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və ona dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Mərkəzi Bankının rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri Tələt Məcidova əzizi

**ELEONORA MƏCİDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi komitənin Sosial statistika şöbəsinin müdiri Elçin Hacıya anası

**SÜDABƏ HACIYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Hüseynovlar və Şirinovlar ailələrinə əzizləri

**RƏNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5317
Sifariş 2767

Qiyməti 40 qəpik